

## Sülh üçün böyük şans

14

Səs

№ 151 (6592) 24 avqust 2022-ci il. Qiymət 60 qəpik

# Zəfərimizin tarixi təntənəsi: "Şuşa İli"!



2

# Kül olan meşələr, yoxsa kül olan gələcək?



8

### "İşğaldan sonra Laçına Suriya və Livandan qanunsuz ermənilər köçürülüb"



9

### Qarabağ separatçıları hələ də "açılışlar" edirlər (?!)



7

### İki avqustun bir Şahmarı...



10

## Qlobal taxıl böhranından QURTULUŞ GÖZLƏNİLİRMİ?



4

### Ölkədə qida təhlükəsizliyi ilə bağlı hansı addımlar atılır?

10

## XƏBƏRDARLIQ: Yol qəzaları ən pik həddə çatıb!



16

# Zəfərimizin tarixi təntənəsi: "Şuşa İli"!



## *İLHAM ƏLİYEV: "Şuşanın bərpasını sürətləndirmək məqsədilə Mən yeni ili "Şuşa İli" elan edirəm"*

**Bəli, 8 ay öncə Prezident İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində 2022-ci ili "Şuşa İli" elan etdi. 5 yanvar 2022-ci ildə isə Prezidentin 2022-ci ilin "Şuşa İli" elan olunması haqqında Sərəncamı ilə bu qərar hüquqi qüvvəyə mindi.**







Dövlət başçısı xalqa müraciətində bildirdi: "Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasının sürətləndirmək məqsədilə mən yeni ili "Şuşa İli" elan edirəm". Bu qərar dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının qəlbini fərəh, böyük qürur və iftixar hissi ilə doldurdu. Prezidentin 7 may 2021-ci il tarixli sərəncamı ilə zəngin və şanlı tarixi keçmişə malik Şuşa şəhəri mədəniyyət paytaxtı elan edildi. Bunun ardınca, 2022-ci ilin Şuşa İli elan edilməsi həm tarixi, həm də mədəni baxımdan mühüm əhəmiyyət kəsb edən qədim şəhərimizə verilən ən böyük dəyərin göstəricisidir.

### "ƏZİZ ŞUŞA, BIZ SƏNİ DİRÇƏLDƏCƏYİK!"

Prezident İlham Əliyevin noyabrın 8-də xalqımızı Şuşanın işğaldan azad edilməsi münasibətilə təbrik edərkən dediyi "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" sözlərinin gerçəkləşəcəyi heç kimdə şübhə doğurmur. Dövlətimizin başçısının qətiyyəti, prinsipiallığı, verdiyi vədə hər zaman sadiq olmağı bu əminliyi yaradır. "Mən Prezident kimi, Ali Baş Komandan kimi hər zaman Azərbaycanın maraqlarının keşiyində duracağam, ölkəmizin hərtərəfli inkişafı, hərbi gücünün artırılması, vətəndaşların daha yaxşı yaşaması üçün əlimdən gələni əsirgəməyəcəyəm",- deyən dövlət başçımız bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Dövlət başçısının Qarabağla bağlı vədlərini də yerinə yetirməsinin şahidi olduq. Prezident İlham Əliyev hər zaman çıxışlarında bildirib ki, "Mənim sözüm imzam qədər qüvvətlidir".

19 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Ulu Öndər Heydər Əliyevin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm", - deyərək son 19 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, son 30 il ərzində həsrətində olduğumuz - Qarabağ Azərbaycandır! - şüarlı haqq və şərəf işimiz olan, Azərbaycan Respublikamızın suverenliyi və ərazi bütövlüyümüzə və nəhayət, Qələbə Zəfərimizə nail olduq! "Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin bu arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!". Azərbaycan Prezidenti İlham Əliyev son 18 ildə öz vədini yerinə yetirdi və bu gün də xalqı qarşısında bir daha sözü ilə əməli bir olan Liderdir! Bəli, bu, həqiqətən də belədir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir", deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir. Bütün bu görülən işlərlə yanaşı, üç aeroportun tikilməsi və növbəti ardıcıl olaraq görülən işlər bir daha onu göstərir ki, Qalib liderimizin sözü ilə əməli üst-üstə düşür. Çünki dövlət başçımızın dediyi bu vədlər də artıq reallığa çevrilməkdədir. Bu gün Azərbaycan xalqı da Qalib Liderimiz Prezident İlham Əliyevin son 19 il prezidentlik fəaliyyəti dövründə bir daha gördü ki, Azərbaycan Prezidenti daima xalqı ilə birlikdədir, onların yanındadır, bütün görülən işləri də xalqına aydın şəkildə çatdırır. Dövlət başçımızın dediyi kimi: "Mən bu ardıcıllıq haqqında Azərbaycan xalqına dəfələrlə demişəm ki, biz hansı işləri görəcəyik, insanlar da bilsinlər".

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır. Və görülən işlər bir daha göstərir ki, Şuşa Qarabağın incisi kimi dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməkdədir.

Bəli, bu gün bütün bərpa işləri planlı şəkildə və yüksək səviyyədə görülür. 2021-ci ilin ilk ayından başlayaraq işğaldan azad olunmuş torpaqlara Qalib Liderinin Qələbə yürüşü hər bir azərbaycanlıya böyük qürur və fəxarət hissi yaşadır. Təbii ki, bu Qələbə zəfərdən sonra işğaldan azad olunan rayonlarına səfər Qalib Komandanın öz sevincini, görüləcək işlərlə bağlı məlumatları xalqı ilə paylaşması məqsədi daşıyır. Ən əsası isə, işğalçı ölkə ilə bərabər, bütün dünya da şahidi oldu ki, torpaqların əsl sahibləri qayıdıb...

Və mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, diplomatik siyasəti və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizləniləcək və insanların öz el-obalarına geri dönəcəklər. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır və 2022-ci ilin "Şuşa İli" elan edilməsi, onun Azərbaycan xalqının tarixi şəhəri olmasını dünyaya sübut etməkdədir!

Bu, Azərbaycan həqiqətləridir. Qısa bir zamanda görülən işlər, reallaşan işlər torpağa məhəbbətdən qaynaqlanır. Ermənilər tərəfindən güllələbaran edilmiş Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri artıq öz isti nəfəsli torpağındadır. Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu. Bülbülün evinin açılışı oldu. "Qarabağ" hoteli əsaslı təmirdən sonra istifadəyə verildi. Görülən işlərin davamı olaraq yeni yaşayış kompleksinin təməli də qoyulub. Cənab Prezidentin vurğuladığı kimi, "Bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar. Həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, eyni zamanda, burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilir. Beləliklə, biz Şuşanı yenidən dirçəldəcəyik".

Bütövlükdə, qalib və qüdrətli Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni hədəflərə doğru əmin addımlarla irəliləyir. "Şuşa ili" isə ölkəmiz üçün siyasi, iqtisadi, ictimai və mədəni sahələrdə, eləcə də diplomatiya müstəvisində mühüm - yeni və daha möhtəşəm uğurlar vəd edir.

**RƏFİQƏ KAMALQIZI**



# Ermənistanda anti-Rusiya kampaniyası

## Bunu edənlər kimlərdir?

ANALİTİK

**Məlum olduğu kimi, son vaxtlar İrəvan küçələrində "Z" simvolu ilə və erməni dilində Rusiyanın Ukraynada apardığı hərbi əməliyyatlarına dəstək motivli vərəqələr yapışdırılır. Həmin kağızlarda Ukrayna, Gürcüstan, Moldova ərazilərinin Rusiyaya məxsus olduğu bildirilir.**




Vərəqələrdə Qarabağın Rusiya Federasiyasının tərkibinə qatılması kimi separatçı və işğalçı, eləcə də təxribatçı xarakterli çağırışlar da yazılıb. Çağırışlar isə belədir: "Krım-Rusiyadır. Donetsk-Rusiyadır. Luqansk-Rusiyadır. Mariupol-Rusiyadır. Zaporojye-Rusiyadır. Xerson-Rusiyadır. Tiraspol-Rusiyadır. Sxinvali-Rusiyadır. Dağlıq Qarabağ-qoy Rusiyanın olsun!"...







### Təxribatçı vərəqələrin yapışdırılmasında iqtidar müxalifəti, müxalifət isə iqtidarı ittiham edir

Maraqlıdır ki, sözügedən vərəqələrin yayılması İrəvandakı "Surmalu" ticarət mərkəzinin partlamasında Rusiyanın xüsusi xidmət orqanlarının əlinin olması iddialarının səsləndirilməsi ilə eyni vaxta təsadüf edib. Üstəlik, belə bir iddianın erməni KİV-lərində və sosial şəbəkələrində tirajlanması İrəvanla Moskva arasında diplomatik qalmaqala da səbəb oldu. Eləcə də, vərəqələrin yapışdırılmasında Ermənistan iqtidarı ilə müxalifəti arasında ittihamlar, qarşıdurmalar yaşandı, tərəflər bir-birini təxribat törətməkdə suçlamağa başladılar. Misal üçün, Ermənistan parlamentində təmsil olunan və rusiyapərəstliyi ilə seçilən "Hayastan" bloku əvvəlcədən bəyan etdi ki, bu məsələdə əlləri yoxdur və əslində, həmin təxribatı hakimiyyət törədib.



### Poliqrafiyası yüksək keyfiyyətə malik olan vərəqələr, məhz Rusiya Federasiyasının hakim partiyası - "Vahid Rusiya"nın təbliğat kampaniyaları zamanı müxtəlif yerlərə yapışdırılır

Başqa tərəfdən, erməni sosial şəbəkə istifadəçiləri vərəqələrin yüksək poliqrafiya keyfiyyətlərinə də diqqət ediblər. Belə ki, bənzər vərəqələr, məhz Rusiya Federasiyasının hakim partiyası - "Vahid Rusiya"nın təbliğat kampaniyaları zamanı müxtəlif yerlərə yapışdırılır. Bu baxımdan, sosial şəbəkə istifadəçiləri sual edirlər: İrəvanın mərkəzi küçələrində həmin vərəqlər necə yapışdırılıb, hansı ki, bu küçə və prospektlərdə gecə və gündüz saatlarında onlarla polis dəstələri növbə çəkirlər?

Digər maraqlı məqam! Rusiyayönümlü fəallar və blogerlər isə əksinə olaraq iddia, hətta təsdiq edirlər ki, vərəqə təxribatının arxasında Ukraynaya məxsus xüsusi xidmət orqanları dayanır. Misal üçün, bloger Mika Badalyan iddia edir ki, hədəf Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsinin maksimum şəkildə qaldırılmasıdır. Erməni blogerin sözlərinə görə, rusiyayönlü təbliğat vərəqələrinin yayılmasının arxasında Ukraynanın Baş kəşfiyyat idarəsinin Psixoloji əməliyyatlar informasiya mərkəzi dayanır. Eyni zamanda, həmin qurum Rusiyaya qarşı aparılan hərbi əməliyyatlarda informasiya müharibəsinə nəzarət edir.

### Erməni bloger Mika Badalyan: "Tezliklə Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsinin qıcıqlandırılmasını sübut edən ciddi faktla bağlı material dərc edəcəyik, konkrert adları açıqlayacağıq"

"Sizi inandırım ki, bu gün bizim qarşılaşdığımız təsəvvürünüzə gətirdiyinizdən də ciddi məsələdir", deyə Badalyan özünün teleqram kanalında yazıb və əlavə edib ki, bunun üzərində Ukrayna xüsusi xidmət orqanları, eləcə də xain rus və erməni strukturları çalışırlar, onlar isə Qərbdən idarə edilirlər: "Biz tezliklə Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsinin qıcıqlandırılmasını sübut edən ciddi faktla bağlı material dərc edəcəyik, həmçinin həmin kampaniyanın arxasında dayanan konkrert adları açıqlayacağıq", Badalyan yazıb.

Beləliklə, rusiyayönümlü fəallar və blogerlər iddia edirlər ki, vərəqələrin arxasında Ukraynanın xüsusi xidmətləri dayanıb.

### Erməni jurnalisti Hayk Ayvazyan isə Mixail Xodorkovskini ittiham edir

Məsələn, digər rusiyayönümlü erməni jurnalisti, "Luys" analitik mərkəzinin rəhbəri Hayk Ayvazyan öz iddiasında konkret adlar da çəkib. Onun sözlərinə görə, İrəvanda anti-Rusiya kampaniyasının aparılmasının arxasında Rusiyadan olan müxalifətçi-oliqarx Mixail Xodorkovski dayanır. "Bu adam Rusiyadan Ermənistana Qərbin "beşinci kolon" nümayəndələrini gətirib və onlar milli xainlərdən ibarət, həm əqli, həm də bədən cəhətdən bütün murdarlıqlara malik olan agentlərdirlər. Onlar ABŞ-ın Rusiyanı parçalamaq üçün verdiyi tapşırığını uğurla nəticələndirə bilməyiblər və indi də Ermənistana keçiblər ki, burada anti-Rusiya təbliğatı aparsınlar, sonra da erməni xalqını Türkiyənin qurbanlıq kürsüsünə oturtsunlar", Ayvazyan yazıb.

Adıçəkilən erməni jurnalistinin sözlərinə görə, Ermənistanda Qərbin təsiri altında olan çox sayda vətəndaşlar var və onlar bilərəkdən Rusiya Federasiyasına qarşı təbliğat kampaniyalarında iştirak edirlər.

### "Qisas" əməliyyatından sonra İrəvanda mitinqlər keçirildi və orada tələb olundu ki, Rusiya Sülhməramlıları Kontingenti Qarabağdan çıxarılsın, onları Fransa sülhməramlıları əvəzləsin...

Beləliklə, baş verənlərin təhlilini apararkən həm də belə nəticə hasil edə bilərik ki, son iki ildə Ermənistanda anti-Rusiya xarakterli dalğalarının kifayət qədər çoxaldığını deyə bilərik. Paralel olaraq, aparılan ictimai sorğulardan da görünür ki, Rusiyanın Ermənistana dost ölkə olduğunu heç də çoxları hesab etmirlər. Eləcə də vaxtilə Rusiyanı ölkələrinə dost hesab edənlərin də sayında kütləvi azalma müşahidə edilməkdədir. Bir çox analitiklərin düşüncələrinə görə, Ermənistanda Moskvaya və RF rəhbərliyinə qarşı neqativ atmosferin get-gedə böyüməsinin arxasında Nikol Paşinyan hökuməti və onun tərəfdarları, həmçinin Qərb strukturlarının nümayəndələri dayanmaqdadır.

Sonda isə xatırlada bilərik ki, avqustun əvvəllərində Azərbaycan Silahlı Qüvvələrinin "Qisas" əməliyyatından sonra İrəvanda mitinqlər keçirildi və orada tələb olundu ki, Rusiya Sülhməramlıları Kontingenti Qarabağdan çıxarılsın, onları Fransa sülhməramlıları əvəzləsin...

*Rövşən RƏSULOV*

# Qlobal taxıl böhranından QURTULUŞ GÖZLƏNİLİRMİ?



**Taxıl dolu Ukrayna gəmiləri dünya bazarlarını təmin etmək üçün yola düşür və bu da Türkiyənin təşəbbüsü ilə, eləcə də BMT-nin vasitəçiliyi ilə reallaşır. Qardaş ölkənin təşəbbüsü ilə Rusiya və Ukrayna arasında aparılan danışıqların nəticəsi olaraq, bu, qlobal təhlükədən, taxıl böhranından qurtuluş hesab edilir. Bununla yanaşı, aclıq təhlükəsinin hələ də ortada olduğu qənaətində olanlar da var, çünki real nəticədən danışmaq hələ tezdir və bu baxımdan da narahatlıq hələ də müşahidə olunur.**

Məlumdur ki, Rusiya da, Ukrayna da dünyada ən əsas taxıl ixracatçısı kimi tanınır. İki ölkə dünyanın taxıl tədarükündə xüsusi çəkiyə malikdir. Belə olan halda hər iki ölkə arasında davam edən müharibənin taxıl tədarükü baxımından nə demək olduğunu təsəvvür etmək çətin deyil. Bəlkə, hələ müharibə başlamamışdan öncə belə bu qarşıdurmanın ərzaq, ələlxüsus taxıl böhranı ilə nəticələnəcəyi əvvəlcəvən də proqnozlaşdırılırdı. Eyni zamanda tətbiq edilən sanksiyalar, bir sözlə ortaya çıxan maneələr taxıl tədarükünü bir qədər də çətinləşdirdi, çünki bu sanksiyalar loqistika ilə bağlı çətinliklər də yaratmış oldu.

Əlbəttə ki, Türkiyənin təşəbbüsü və BMT-nin vasitəçiliyi ilə Rusiya və Ukrayna arasında aparılan danışıqlar müsbət nəticələrlə yadda qaldı. Ən vacib məqam ondan ibarətdir ki, danışıqların ardınca artıq Ukrayna gəmiləri taxılı dünya bazarlarına daşıyırlar. Məhz taxıl dolu Ukrayna gəmiləri artıq Türkiyəyə, oradan da dünya bazarlarına istiqamət götürüb. Sözsüz ki, bu məsələdə Türkiyənin rolu danılmazdır və bəziləri hesab edir ki, dünya artıq taxıl böhranından xilas olub.

Əgər taxıl dolu Ukrayna gəmiləri Türkiyənin təşəbbüsü ilə dünya bazarlarına yön alıbsa, deməli, bu məsələdə qardaş ölkənin rolunu danmaq olmaz. Bunu bütün dünya ictimaiyyəti çox yaxşı başa düşür. Başa düşür ki, Türkiyə bütün dünyaya, dünya bazarlarına taxılın daşınması üçün çalışdı və buna nail oldi. Bu fakt həm də bütün dünyada Türkiyənin nüfuzunun artması deməkdir, çünki taxıl böhranından dünyanı hansı ölkənin xilas etdiyini hər kəs başa düşür. Görəsən, bütün dünya taxıl böhranından xilas oldumu, sualı indi hər kəsi düşündürən bir sualdır.

Heç şübhəsiz ki, taxıl böhranına səbəb olan təkcə Rusiya ilə Ukrayna arasındakı müharibə deyil. Təkcə müharibəyə görə, taxılın dünya bazarlarına daşınmasında yaranan problemlərə görə yox, digər məsələlərə görə də taxıl təminatında əngəllər ortaya çıxa bilər və indi onlar insan cəmiyyətini durmadan düşündürür və həlli yolları arasdırılır.

Hazırda dünyanın ərzaq, ələlxüsus taxıl tədarükü ilə bağlı təhlükəsi eyni zamanda iqlimin dəyişməsi ilə əlaqədardır. Sözsüz ki, təhlükənin əsas və köklü səbəbləri iqlim şəraitinin pisləşməsidir. Daha dəqiq desək, quraqlıq, qlobal istiləşmə, təbii fəlakətlər məhsuldarlıq və taxıl tədarükü üçün arzuolunan deyil. Belə bir qlobal problem əlbəttə ki, məsələnin daha ciddi olduğundan xəbər verir. Bütün dünya bu məsələdə sözsüz ki, daha məsuliyyətli olmalıdır və problemin qlobal olması bunu, bu məsuliyyəti tələb edir.

Sözsüz ki, COVİD-19 pandemiyasının da təsirləri danılmazdır. Məhsul istehsalında, tədarükündə yaranan problemlər, eyni zamanda, pandemiya səbəbindən də meydana gəlib. Pandemiya başladığı zamandan etibarən məhsul istehsalı, ələlxüsus taxıl tədarükündə də, taxılın daşınmasında da, dünya bazarlarının taxılla təminatında da problemlər yaratdı. Koronavirus bəlası ortaya çıxdığı zaman tətbiq olunan qapanlamaların təsiri hələ də özünü göstərir. Eləcə də pandemiyaya görə sərhədlərin bağlanması, əlaqələrin məhdudlaşdırılması təsirsiz ötüşə bilməzdi və elə də olduğunu hər birimiz müşahidə etmiş olduq.

Məsələ burasındadır ki, təbii şərait, iqlim dəyişikliyi, qlobal istiləşmə, quraqlıq, eləcə də pandemiya kimi arzuolunmaz hallar insan cəmiyyətindən bilavasitə asılı olmayan hallardır. Yəni insan cəmiyyəti istəsə də, istəməsə də bu halların qarşısını ala bilmir. Nə qlobal istiləşmənin, nə quraqlığın, nə də koronavirus kimi xəstəliyin, bəlanın qarşının öncədən alınması, yaxud proqnozlaşdırılması mümkünsüz görünür. Amma bununla yanaşı, bəzi məsələlər, ələlxüsus müharibələr, tətbiq olunan sansiyalar, loqistiqanın sıradan çıxması bilavasitə insan cəmiyyətinin təsiri ilə ortaya çıxır. Hazırda Rusiya ilə Ukrayna arasında davam edən müharibənin fonunda məhz tədarük, təchizat məsələləri ilə bağlı, eləcə də loqistik məsələlərlə bağlı problemlər süni şəkildə peyda olub. Bunun da qarşısının alınması məhz insan cəmiyyətinin, beynəlxalq təşkilatların, aparıcı dövlətlərin məsuliyyətidir.

Qeyd etdiyimiz kimi, Rusiya və Ukrayna taxıl istehsalı və ixracatında dünyada ilk onluqda olan dövlətlərdəndir. Hazırda davam edən müharibə fonunda, Rusiyaya qarşı tətbiq edilən sanksiyalar, Ukraynanın kənd təsərrüfatı infrastrukturunun zəifləməsi, dünya əhalisinin ərzaq məhsulları içərisində əsas yer tutan taxıl məhsulları ilə təminatında ciddi problemlərin qalacağı anlamına gəlir. Elə bu səbəbdən də taxıl və digər zəruri ərzaq məhsulları idxalının ən aktual və həyati məsələ olduğu ortaya çıxır. Azərbaycanda da taxılla bağlı problemin olmaması üçün tədbirlər görülməlidir və bu məsələnin köklü şəkildə həlli məhz idxalından asılılığının aradan qaldırılması hesab olunur. Amma hələ də bütün dünya taxıl tədarükü ilə bağlı çətin durumda olduğunu qəbul edir və bunun qarşısının alınması ən vacib hesab olunur.

Ən vacib məsələlərdə biri də taxılın bahalaşması sayılır ki, bu məqamda Türkiyə və BMT-nin vasitəçiliyi ilə imzalanan sazişlə Ukrayna taxılının münaqişə zonasından çıxarılmağa başlaması həm də buğdanın dünya bazarındakı qiymətlərinin kəskin bahalaşmasının qarşısının alınması deməkdir. Təbii ki, Türkiyə tərəfindən atılan addım bu istiqamətdə yaranmış gərginliyi xeyli yumşaltmağa gətirib çıxarıb. Qardaş ölkənin təşəbbüsü qiymətlərdə də özünü göstərir. Artıq buğdanın qiymətində əhəmiyyətli enmələr qeydə alınıb. Deməli, Türkiyə artıq dünya ərzaq böhranı, eləcə də taxıl tədarükü, qiymətlərin bahalaşmasının qarşısının alınmasında öz töhfəsini vermiş olub. Ona görə ki, Ukrayna taxılının dünya bazarlarına çıxışı ilə bağlı əldə olunan razılılıq heç də kiçik bir iş deyil və kifayət qədər, xüsusilə bu gün üçün hədsiz dərəcədə əhəmiyyətlidir. Bir sözlə, Türkiyənin vasitəçiliyi ilə əldə olunan bu razılaşmanın dünya bazarlarında yaranmış taxıl qıtlığının aradan qaldırılması baxımından əhəmiyyəti danılmazdır.

Qeyd olunduğu kimi, dünyada əsas taxıl ixracatçısı olan iki ölkə arasında danışıqlar Türkiyənin təşəbbüsü, həmçinin BMT-nin vasitəçiliyi ilə baş tuta bilirsə, bəs niyə ATƏT və onun timsalında digər beynəlxalq təşkilatlar belə vasitəçilik etmirlər. Heç yada da düşmür. Dünyanın müxtəlif ölkələrində, ələlxüsus Cənubi Qafqazda hər hadisəyə, hər xırda məqama cəld reaksiya verən, ermənilərin yalançı qıy-qışqırığına dərhal rəy bildirən, guya həmin hadisələrə görə narahat olan bu beynəlxalq təşkilatların bütün dünyanın taleyinə ilk baxışdan belə biganə münasibət sərgilədiyini düşünmək belə qəbuledilməzdir. Sözsüz ki, əgər həmin təşkilatlar bir xalqın, daha doğrusu kiçik bir toplumun qondarma sıxıntısına münasibət bildirilirsə, deməli bütün dünyada baş verən proseslərə, bütün dünyanın, dünya ictimaiyyətinin qarşısında duran problemə görə dərhal hərəkətə keçmir?

Təsəvvür edək ki, bütün dünya aclıq, taxıl qıtlığı ilə üz-üzədir, hansı ki, dünya əhalisinin böyük əksəriyyəti daha çox taxıldan istifadə edir və belə bir məqamda bütün insan cəmiyyətinin qarşılaşdığı problemin fonunda bəzi beynəlxalq təşkilatlar, eləcə də dünyanın fövqəl dövlətləri hansısa layihə ilə çıxış etmirlər. Fransa kimi bir Avropa ölkəsi dünyada taxıl böhranı deyil, ermənilərin olmayan hüquqları barədə danışmağa daha çox yer ayırırsa, dünya ölkələri müharibələrin fonunda öz hegemonluğu üçün daha çox səy göstərir, bunun üçün daha çox kapital ayırırlarsa, hətta bəzi ölkələrin öz ambisiyaları fonunda, onsuz da təbii şərait, quraqlı, qlobal istiləşmə və digər məsələlərlə bağlı taxıl böhranını tədarükü çətinləşdirməklə, bir qədər də dərinləşdirirsə, bu, artıq həyəcan təbilinin vaxtı olduğunu bildirir.

Doğrudur, hansısa dövlətin suverenliyi, demokratikliyi və digər ali dəyərləri üçün çalışmaq, buna yardımlar etmək yaxşıdır, əgər başqa niyyətlər yoxdursa. Təbii ki, ABŞ kimi bir ölkə, guya dünyada demokratiya carçısı, ali dəyərlərin mühafizəçisi kimi tanıdılan bir ölkə Rusiyanı sıradan çıxarmaq üçün Ukraynaya yardım edirsə, ruslara qarşı sanksiyalar tətbiq edirsə, bu sanksiyaları daha da artırmaq niyyətindədirsə və həmin tədbirlərin təsiri olaraq taxıl böhranının dərinləşməsini hesaba da almırsa, burada ali dəyərlərdən, humanizmdən dəm vurmaq yersizdir. Bir ölkənin vətəndaşlarının hüquqlarının müdafiəsi bütün dünya əhalisinin aclıq təhlükəsi ilə müqaisəyə gələ bilərmi? Əlbəttə ki, gələm bilməz. Elə isə görülən işlərin mahiyyəti nədir? Niyə fövqəl dövlətlər öz ambisiyalarından əl çəkib bəşəriyyəti gözləyən aclıq, taxıl böhranı təhlükəsinin qarşısının alınması üçün çalışmırlar? Niyə hər biri Türkiyənin timsalında öz töhfəsini vermir? Niyə heç olmasa hansısa təşəbbüslə çıxış etmirlər?

Göründüyü kimi, Türkiyə həqiqətən də dünyəvi dövlət olduğunu, humanist olduğunu, ədalətli olduğunu bu dəfə də sübut etdi və bəşəriyyət üçün addım atdığı da heç kim üçün sirr deyil.





Əgər taxıl dolu gəmilər dünya bazarlarına yön alırsa, deməli, Türkiyənin artıq humanist siyasəti öz nəticəsini təkrarən göstərir. Hətta Türkiyənin iki taxıl tədarükçüsü olan ölkə ilə danışıqlar aparmaq təşəbbüsü, taxılın dünya bazarına çıxarılması istiqamətində nailiyyətləri sıradan bir hadisə deyil. Gələcəkdə bu barədə daha dolğun, daha dərin açıqlamaların, şərhlərin olacağı zərrə qədər şübhə doğurmur. Çünki bu dəfə də heç bir fövqəl dövlətin görmədiyi işi Türkiyə bütün bəşəriyyət üçün gördü.

Maraqlıdır, dünya ölkələri, ələlxüsus ABŞ, Rusiya, Fransa və başqa dövlətlər taxıl böhranı ilə bağlı hansısa tədbirlər gaqda düşünürlərmi? Bəlkə bu ölkələrin də hansısa təklifi, hansısa təşəbbüsü olacaq? Bəlkə öz ambisiyalarından əl çəkib qlobal böhranla, taxıl böhranı ilə məşğul olacaqlar? Əgər belə olacaqsa, artıq Türkiyənin təşəbbüsü ilə danışıqların aparılması, taxılın dünya bazarlarına daşınması və bu istiqamətdə görülən işlər, atılan addımlar davamlı olacaq. Bu isə o deməkdir ki, taxıl böhranının aradan qaldırılmasına, yaxud birgə səylər sayəsində bu böhranı dəf etməyə nail olunacaq. Bir sözlə, qlobal taxıl böhranından qurtuluş gözlənilirmi, deyə düşündükdə dərhal anlaşılır ki, bu böhrandan qurtuluş ancaq dünya dövlətlərindən asılıdır və hər bir dövlət öz töhfəsini verdiyi təqdirdə, ən azından sözügedən böhranın aradan qaldırılması istiqamətində görülən işlərə əngəl olmadığı təqdirdə mümkündür.

***İnam Hacıyev***

TƏHLİL + YANAŞMA

# Müstəqilliyimizin bəhrəsi: idmançılarımız və uğurlarımız

**Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarının yekunlaşması və idmançılarımızın 55 ölkə arasında 4-cü yerə layiq görülməsi qürurverici haldır. Qeyd edək ki, bundan əvvəlki, həm də Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarında idmançılarımız 1-ci yerin sahibi olmuşdular.**

Nəinki bu gün gündəmdə olan İslam Həmrəyliyi Oyunlarında, ölkəmizin idmançıları illərdir ki, dünya miqyaslı idman oyunlarında müvafiq yerləri tutur, ölkəmizə medallarla qayıdır, bayrağımızı yüksəklərə ucaldırlar. Bütün bunlar isə müstəqilliyimizin bərpasından sonra mümkün olmuşdur. Odur ki, ölkəmizdə idmanın inkişafından, bu sahəyə göstərilən dövlət qayğısından söhbət açmaq yerinə düşər.

Əsarətində yaşadığımız sovet quruluşunun 70 illik zaman kəsiyində ölkəmizdə bütün sahələr kimi, idman sahəsi də mürgüləməkdə idi. Necə ki, Azərbaycandan olan oğlanlar hərbi xidmətə çağırılan zaman fəhlə batalyonlarına göndərilirdi, xalqımızın təfəkkürünü yaxşı bələd olan imperiya başçıları bu siyasətlə bizi geridə qoymağa, övladlarımızın öyrənməsinə maneçilik yaradır, həmçinin idman qabiliyyəti olan uşaq, yeniyetmə və gənclərimiz də üzə çıxarılmır, onların potensialı kölgədə qalmaqla məhv edilirdi.

Gələcəyimiz olan gənclərin fiziki cəhətdən sağlam böyüməsində bədən tərbiyəsi və idmanın mühüm rolu vardır. Ona görə də ölkəmizdə bu sahənin inkişafı mühüm və qabaqcıl istiqamət kimi müəyyənləşdirilmişdir. Gənclərlə iş, bədən tərbiyəsi və idman sahəsində həyata keçirilən tədbirlər artıq öz bəhrəsini verməkdədir.








Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirmiş, gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi qayğısına qalmışdır. Ulu öndərin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması ölkədə idmanın inkişafına güclü təkan vermişdir. Məhz bu dövrdən başlayaraq Azərbaycanda idman və olimpiya hərəkatının inkişafı üçün dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilmiş, 1997-ci ildən gənclər və idman siyasəti yeni mərhələyə qədəm qoymuşdur. Həmin il iyul ayının 31-də cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin Prezidenti seçilməsindən sonra ölkəmizdə idman hərəkatı daha da genişlənmiş, bu sahənin inkişafına xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Mən imkan daxilində hamıya, gənclərə isə, əlbəttə, maksimum dərəcədə idmanla məşğul olmağı məsləhət görürəm. Ona görə ki, bu, sağlamlıq üçün, ilk növbədə cəmiyyət üçün faydalıdır".

## Olimpiya Hərəkatı idmanın inkişafına təkan verdi

Müstəqilliyimizin bərpasından sonra bütün sahələr kimi, idman sahəsində də inkişafın təməli qoyuldu. Ölkəmizdə olimpiya hərəkatının başlanmasına və onun fəaliyyətinə bu günün prizmasından nəzər saldıqda gözlərimiz önündə bir qərinəyədək dövrün uğur və nailiyyətlərlə dolu mənzərəsi açılır. Bəlkə də 30 ilin əvvəlində idmanın inkişafı ilə bu nöqtəyə gəlib çıxmağın mümkünlüyü heç ağıla da gəlməzdi. Çünki həmin dövr o dövr idi ki, ölkə iqtisadi cəhətdən tənəzzülə uğramışdı. Sovet imperiyasının buxovlarından yenicə azad olan xalq olmazın çətinlikləri ilə üz-üzə qalmışdı. Bu, həyat tərzi olaraq gənclərimizdən də təsirsiz keçmirdi. Milli Ordumuzun yenicə təkmilləşdiyi o illərdə gənc oğlanlar 4-5 il əsgəri xidmət keçir, qayıdanlar işləmək üçün iş yerləri tapmırdılar. Gənc qızların da sosial həyatı çox passiv şəkildə idi, onların asudə vaxtlarının səmərəli təşkili üçün əsaslı bir ünvan yox idi. Belə bir dövrdə gənclərin üzünə onların maraqlarını təmin edə biləcək qapıların açılması təbii ki, 30 ilin sonunda bu uğurların sadalanması ilə nəticələnəcəkdi. Bu qapı idmanın inkişafı, ölkəmizdə Olimpiya Hərəkatının başlanması idi. Bu, həm də ölkənin gələcək inkişafına istiqamətlənmiş siyasətin prioritetlərindən biri idi. Ölkəmizin başçısı cənab İlham Əliyevin dediyi kimi: "Azərbaycanda Olimpiya Hərəkatı və idman uğurla, sürətlə inkişaf edir. Azərbaycan dünyada idman dövləti kimi tanınır. İdman Azərbaycanda dövlət siyasətidir. Dövlət bu istiqamətdə öz siyasətini apararkən idmanın hərtərəfli inkişafına nail ola bilmişdir".

Son illər ölkə iqtisadiyyatının sürətli inkişafı bədən tərbiyəsi və idmanı da əhatə etmişdir. Ölkə başçısının diqqət və qayğısı ilə Azərbaycanın hər yerində müasir idman kompleksləri tikilib istifadəyə verilir, mövcud idman obyektləri günün tələblərinə uyğun yenidən qurulur, maddi-texniki baza möhkəmləndirilir. Prezident cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin 25 illik yubileyi münasibətilə keçirilən mərasimdə deyirdi: "Biz əlbəttə ki, ilk növbədə, idmanla məşğul olmaq üçün şərait yaratmalı idik və bu istiqamətdə dövlət investisiyaları hesabına Azərbaycanda bir çox müasir Olimpiya idman qurğuları tikilib istifadəyə verilmişdir. Təkcə onu demək kifayətdir ki, Azərbaycanın bölgələrində 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi tikilmişdir. Bakıda isə bu gün ən müasir idman infrastrukturu mövcuddur. Əvvəlki illərdə tikilmiş idman obyektləri əsaslı təmir olundu və eyni zamanda, son illərdə bir neçə böyük stadion, idman zalı inşa edildi. Onların arasında əlbəttə ki, təxminən 70 min tamaşaçı yeri olan Olimpiya Stadionunu qeyd etməliyəm. Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Eyni zamanda, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. Bir sözlə, son illər ərzində həm bölgələrdə, həm Bakıda idmanın inkişafına, infrastruktur layihələrinə qoyulan vəsait öz nəticəsini verməkdədir".

## Ötən illərin uğurları...

Peşəkar idmançıların yetişdirilməsi, bu sahədə qazanılan nailiyyətlərin ildən-ilə artması, beynəlxalq yarışlarda yüksək nəticələrin əldə olunması və ölkəmizin beynəlxalq yarışlara ev sahibliyi etməsi dövlətin bu sahəyə olan qayğısının nəticəsidir. Olimpiya və dünya çempionatlarında qazanılan medalları, nailiyyətlərin sayı ildən-ilə artır. İdmançılarımız 2008-ci ilin avqustunda Pekində keçirilən Olimpiya Oyunlarında uğurla çıxış edərək 7 medal qazanıb və Azərbaycan dünyanın iki yüzdən çox ölkəsi arasında 38-ci yeri tutub.

Ardı Səh. 6

Əvvəli Səh. 5

# Müstəqilliyimizin bəhrəsi: idmançılarımız və uğurlarımız



Prezident İlham Əliyevin Sərəncamı ilə ”İdman İli” elan edilən 2012-ci il də Azərbaycan idmançıları üçün uğurlu il olub. Komandamız Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında daha yaxşı nəticə əldə edib. London Olimpiadasında idmanın 16 növü üzrə 53 idmançı ilə təmsil olunan Azərbaycan 2 qızıl, 2 gümüş və 6 bürünc medal qazanmaqla bundan əvvəlki olimpiadalardakı rekordunu yeniləyib. 2016-cı ildə Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunlarında isə Azərbaycan milli komandası medal sayına görə 14-cü yerdə qərarlaşdı. İdmançılarımız milli komandamızın aktivinə 18 medal yazdırdılar.

İdman sahəsində əsl yüksəliş dövrünü yaşayan Azərbaycanda mükəmməl idman infrastrukturu yaradılıb. Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı və digər möhtəşəm idman obyektləri bunun göstəricisidir. Bütün bunlar ölkəmizi beynəlxalq yarışların, dünya çempionatlarının keçirilməsi üçün əlverişli məkana çevirib. Təsadüfi deyil ki, belə möhtəşəm idman qurğuları 2012-ci ildə futbol üzrə 17 yaşlı qızlar arasında dünya çempionatının, 2015-ci ildə birinci Avropa Oyunlarının, 2016-cı ildə futbol üzrə 17 yaşadək oğlanlar arasında Avropa çempionatının, 42-ci Ümumdünya Şahmat Olimpiadasının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının və qadınlar arasında voleybol üzrə Avropa çempionatının, 2019-cu ildə bədii gimnastika üzrə dünya çempionatının, habelə Formula-1 Azərbaycan Qran-prisinin, 2021-ci ildə futbol üzrə Avropa çempionatının, 2022-ci ildə yenə də Formula-1 Azərbaycan Qran-prisinin müəyyən mərhələlərinin yüksək səviyyədə təşkil olunması ilə nəticələndi.

## 99: 29 qızıl, 36 gümüş, 34 bürünc

V İslam Həmrəyliyi Oyunlarında Azərbaycan nümayəndə heyəti ən böyük nümayəndə heyəti ilə - 282 idmançıdan əlavə, məşqçi, texniki, idman heyəti ilə yanaşı, media və rəsmi nümayəndələrlə birlikdə 484 nəfərlə təmsil olunurdu. Qardaş ölkədə keçirilən yarışda idmançılarımız 99 medal qazanmışlar ki, onlardan 29-u qızıl, 36-sı gümüş, 34-ü bürünc olmuşdur.

Avqustun 22-də Prezident cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın V İslam Həmrəyliyi Oyunlarında nəticə əldə etmiş idmançılarla görüşləri zamanı dövlətimizin başçısı demişdir: V İslam Həmrəyliyi Oyunlarında dördüncü yerə layiq görülmək çox böyük nailiyyətdir. Bu nailiyyət onu göstərir ki, bizim əvvəlki uğurlarımız təsadüfi xarakter daşımırdı. Bildiyiniz kimi, beş il bundan əvvəl Bakıda IV İslam Həmrəyliyi Oyunlarında komandamız birinci yerə layiq görülmüşdür. Bu da təbiidir. Çünki öz doğma divarları həmişə idmançılara əlavə kömək göstərir. Bu dəfə isə çox gərgin mübarizə nəticəsində biz dördüncü yerə layiq görüldük. Onu da bildirməliyəm ki, Oyunlarda ölkələrin ən güclü idmançıları iştirak edirdilər. Bizim idmançılarımız 99 medal qazanaraq, - onlardan 29-u qızıl medaldır, - bir daha ölkəmizin gücünü göstərmişlər.

Onu da deməliyəm, bu da çox sevindirici haldır ki, idmançılarımız 19 idman növündə medallar qazanmışlar. Bu onu göstərir ki, idmanın bir çox növləri ölkəmizdə uğurla inkişaf edir. Əlbəttə ki, birinci yerdə, - əgər belə demək mümkündürsə, - güləşçilərdir, 23 medal qazanmışlar, onlardan 8-i qızıl medaldır. Bu da təbiidir. Çünki güləş bizim milli idman növümüzdür və biz güləşdə ənənəvi olaraq uğurlar qazanmışıq. İkinci yerdə gimnastikanın nümayəndələridir. Üç növ gimnastikada idmançılarımız 17 medal qazanmışlar, onlardan 8-i qızıl medal olmuşdur. Üçüncü yerdə qeyri-Olimpiya idman növü - kikboksinq idmançılarıdır. Onların qazandıqları medalların sayı 15-dir. Onlardan 3-ü qızıl medaldır. Yəni, bu, doğrudan da böyük nailiyyətdir. Çünki bu Oyunlarda 50-dən çox ölkə iştirak edirdi və yenə də deyirəm, mübarizə çox gərgin keçib.

Ölkəmizdə idmanın inkişafında böyük xidmətləri olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva idmançılarımızın uğurlarını hər dəfə yüksək dəyərləndirir və onlara səmimi təbrikini çatdırır. Avqustun 21-də Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında medal qazanan idmançılarımızı da təbrik edib: ”Azərbaycan idmançıları V İslam Həmrəyliyi Oyunlarını 99 medalla 4-cü sırada başa vurublar. Bunlardan 29-u qızıl, 36-sı gümüş, 34-ü isə bürünc medaldır. İdmançılarımızı səmimi-qəlbdən təbrik edirəm! Siz yarışlarda mükəmməl çıxış etdiniz, möhkəm iradə və məharət nümayiş etdirərək inamlı qələbə qazandınız! Gərgin əməyinizə, Azərbaycan azarkeşlərinə bəxş etdiyiniz sevincə görə çox sağ olun! Sizə möhkəm cansağlığı, yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!”.

Bəli, çox qürurverici haldır ki, artıq müstəqil dövlətimizin bütün sahələrdə, eləcə də idman sahəsində uğurları ilə fəxr edirik. Həm də qürur duyuruq ki, gənclərin gələcəyini, sağlamlığını, vətənpərvərliyini onların idmanla məşğuliyyətində görən və idmanın inkişafına hərtərəfli şərait yaradan cənab İlham Əliyev kimi Prezidentimiz var. Ölkəmizin rəhbərinin həm Konyada-yarışın açılış mərasimində, həm də yarışdan sonra idmançılarımızla görüşməsi onlarda yeni-yeni uğurlar üçün stimul yaradır, qələbədən-qələbəyə səsləyir. Görüşdə Prezidentimizin çıxışının sonundakı səmimi sözlər ölkəmizdə idmana və idmançılara qayğının bir daha təsdiqidir: Oyunlardan sonra isə əlbəttə ki, istirahət dövrü olmalıdır, amma çox çəkməməlidir, çünki qarşıda Yay Olimpiya Oyunları durur, o qədər də çox vaxt qalmayıb, cəmi 2 il qalıb. Ona görə yaxın aylarda artıq hazırlığa başlamaq lazımdır, ondan sonra təsnifat turnirləri başlayacaq, komandamız formalaşacaq. Hesab edirəm ki, indi bütün idman qurumlarının əsas məqsədi Yay Olimpiya Oyunlarına hazırlıq olmalıdır. Mən əminəm ki, bütün idman qurumları burada da öz vəzifə borclarını bilirlər, yaxşı dərk edirlər və beləliklə, Yay Olimpiya Oyunlarında biz ölkəmizi ləyaqətlə təmsil edəcəyik.

## Azərbaycan bayrağını qürurla dalğalandıran idmançılarımız onu Qarabağda da qaldırdılar

Müstəqilliyimizin bərpasından ötən illərdə idmançılarımız dünya idman yarışlarında neçə-neçə medallar qazanmış, bayrağımızı dəfələrlə yüksəklərə qaldırmışlar. Lakin bütün bu yarışlardakı uğurlarımızla yanaşı, qəlbimizdə bir nisgil, kədər bizi tərk etmirdi. Hər dəfə bayrağımız xarici ölkələrdə idmançılarımızın uğuru ilə yüksəklərdə dalğalananda Qarabağımız gözlərimiz önünə gəlir və biz bu bayrağın o torpaqlarda dalğalanmasının xəyalını qururduq. Qarabağ bizim yaramız, sızlayan, bizi rahat olmağa qoymayan dərdimiz idi. Baxmayaraq ki, ötən illərin hər birində işğal altında olan torpaqlarımızın geri qaytarılması üçün dövlətimizin başçısı ardıcıl tədbirlər həyata keçirirdi, bütün dünyanı haqq səsimizə səs verməyə çağırırdı, lakin səsimizi eşidən yox idi. Belə olan təqdirdə biz torpağımızı öz gücümüzlə geri qaytarmaq qərarına gəldik və 2020-ci ilin 44 günlük İkinci Vətən Müharibəsi ilə torpaqlarımızı yağı düşmənin əsarətindən azad etdik. Minlərlə şəhidimiz, minlərlə qazimiz oldu, lakin 30 ildən sonra Zəfər bayrağını Qarabağda qaldıra bildik.

Gənclərimizin torpaqlarımızın işğaldan azad olunması uğrunda göstərdikləri şücaət, onların fiziki gücü, son nəfəslərinədək rəşadətlə döyüşmələri, torpaq, Vətən uğrunda şəhid olmaları göstərdi ki, bu xalqın övladlarının Vətən sevgisi bütün sevgilərdən, istəklərdən öndədir. Hər bir yarışda Azərbaycan bayrağını qürurla dalğalandırmağa nail olan idmançılarımız üçrəngli bayrağımızı Qarabağda da dalğalandırmağa nail oldular. Fevral ayında gənclərlə görüşündə Prezident İlham Əliyev onların Vətən müharibəsindəki şücaətindən söhbət açaraq demişdir: ”Şuşa qalasına dırmaşmaq, təkcə Daşaltıdan Şuşaya piyada getmək, necə deyərlər, böyük sınaqdır. Amma sənin üzərinə avtomatlardan, pulemyotlardan, tanklardan ataş yağdırılırsa, mənəvi və fiziki ruh yüksəkliyi lazımdır. Bu, mənəvi və fiziki ruhun birliyidir. Bəs əgər bizim gənclər hazırlıqsız olsaydı, əgər onlar fiziki cəhətdən zəif olsaydı, bacarardılarmı? Bacarmazdılar. Ona görə idman bu deməkdir. Dinc həyatda da hökmən lazımdır, hökmən”.

## Qalib ölkənin qalib idmançıları

V İslam Həmrəyliyi Oyunları Zəfərimizdən sonra ilk oyun idi ki, idmançılarımız qalib ölkəmizi təmsil edirdilər. Bunu dövlətimizin başçısı Konyada yarış öncəsi də idmançılarımıza söyləmişdi. Oyundan sonra da idmançılara görüşü zamanı bir daha xatırlatdı: Mən sizinlə Oyunların açılış günündə Konyada görüş əsnasında əmin olduğumu bildirmişdim ki, siz ölkəmizi ləyaqətlə təmsil edəcəksiniz. Şadam ki, belə də oldu. Bir daha nəinki bütün müsəlman aləmi, bütün dünya idmançılarımızın gücünü gördü. Hər dəfə Bayrağımız qaldırılanda, Himnimiz səslənəndə hər bir Azərbaycan vətəndaşı haqlı olaraq qürur hissi keçirir və hər qələbə bir daha bizim şöhrətimizi artırır. Mən sizinlə Konyada görüş zamanı demişdim ki, sizin üzərinizə əlavə məsuliyyət düşür. Çünki siz bu Oyunlarda qalib ölkəni təmsil edəcəksiniz. Bu, həm çox qürurverici amildir, eyni zamanda, böyük məsuliyyətdir. Bu məsuliyyəti dərk edərək siz ölkəmizi ləyaqətlə təmsil etmisiniz. Baxmayaraq ki, əfsuslar olsun, bəzi hallarda hakimlər sizə qarşı ədalətsiz olmuşdular, qərəzli olmuşdular. Mən imkan daxilində yarışları izləyirdim və gördüm ki, bizim idmançılarımıza qarşı nə qədər böyük ədalətsizlik göstərilir. Amma buna baxmayaraq, siz təmkinlə, həm özünüz, həm də ki, məşqçiləriniz çox düzgün addımlar ataraq öz gücünüzü sübut etməyə çalışmısınız və buna nail olmusunuz.



Dövlətimizin başçısı çıxışlarında onu da vurğulayır ki, bizim qabaqcıl, görkəmli idmançılarımız bütün idmançılar üçün nümunədir. Çünki onlar həm idmanda böyük uğurlar qazanıblar, həm də onların hamısı vətənpərvər insanlardır. Eyni zamanda, bizim çempionlarımız cəmiyyətdə də özlərini çox ləyaqətlə aparırlar. Bu, bir yeni davranış nümunəsidir.

Uşaqların, yeniyetmələrin, idmanla məşğul olmaq istəyənlərin də onlara oxşamasını vurğulayan ölkəmizin rəhbəri qeyd edir ki, onlar görürlər ki, əgər sən idmanda böyük uğur əldə etmisənsə, cəmiyyətdə özünü ləyaqətlə aparırsansa, öz həyatını ləyaqətlə qura bilərsən. Ona görə, son illər ərzində idman bölmələrinə müşahidə olunan kütləvi axın bu səbəblərdən qaynaqlanır. Bu, məni çox sevindirir. Çünki bizim gənclər idmanla nə qədər çox məşğul olsalar, onlar üçün də, dövlət üçün də bir o qədər yaxşı olacaq. İdmanla məşğul olanlar vətənpərvər insanlardır. İdman qələbələri hər bir vətənpərvər Azərbaycan vətəndaşını sevindirir. Hər dəfə biz beynəlxalq yarışlarda görəndə ki, bizim bayrağımız qaldırılır, ürəyimiz fərəhlə dolur. Bu sevinc anlarını bizə idmançılar yaşadır. Əminəm ki, gələcək yarışlarda idmançılar yenə də qələbə qazanacaqlar, Azərbaycan xalqını sevindirəcəklər.

***Mətanət MƏMMƏDOVA***

# Qarabağ separatçıları hələ də "açılışlar" edirlər (?!)



**Görünür, Araik Arutyunyan Laçın şəhərində, Zabuxda və s. işğaldan azad olunan ərazilərimizdə inşa edilmiş qanunsuz tikililərin daha onlara məxsus olmadığını unudub...**

Yəqin ki, bir çoxları mediada hətta 44 günlük müharibədən sonra belə Qarabağda, Rusiya sülhməramlıları kontingentinin (RSK) müvəqqəti yerləşdikləri ərazilərimizdə qalmağa davam edən separatçı tör-töküntülərinin müxtəlif infrastrukturlarla bağlı "açılışlarının" şahidləri olublar. Gah Ağdərədə, gah Xocavəndin RSK-nın nəzarəti altındakı ərazilərində, gah Əsgəranda, gah da digər ərazilərimizdə inşa edilən, əslində isə oyuncaq qutulara bənzəyən evlər, uşaq meydançaları və s. söz yox ki, diqqətlərdən kənarda qalmır. Təbii ki, bununla yanaşı, bizlərdə növbəti suallar yaranır: məgər separatçılar bu ərazilərdən rədd olunmayacaqlarmı?! Onlar nə zamana qədər əl-qollarını sallayaraq torpaqlarımızda özlərini ev sahibi kimi aparacaqlar?! Haqlı suallardır, amma gəlin bir reallığı da etiraf edək ki, bir vaxtlar Laçın şəhərinin və Zabux da daxil olmaqla ətrafdakı kəndlərin boşalmayacağını iddia edənlər indi ağızlarına su alıb-susublar.




**FOTO: 2016-cı il, Laçının Zabux kəndində qanunsuz inşa edilən evlərin açılış mərasimi**

Bəri başdan deyim ki, Xankəndi başda olmaqla yerdə qalan ərazilərimizdə də belə olacaq, şübhə etməsinlər. Halbuki, məhz ermənilərin diasporuna daxil olan ən böyük investor təşkilatı - "Hayastan" fondu tərəfindən Zabuxda qanunsuz olaraq məskunlaşdırılan, əsasən Livan və Suriyadan olan Yaxın Şərq ermənilərı üçün yenə də qanunsuz evlər, məktəb binası, uşağ bağçası, habelə digər infrastruktur layihələri inşa edilmişdi. İndi isə həmin yerlər əzəli sahiblərinə - Azərbaycan xalqına geri qaytarılır!

***Bu dəfə isə Araik "uşaq-yeniyetmə idman meydançasının açılışında" iştirak edibmiş...***

**FOTO: Araik növbəti dəfə cibinə axan oğurluq pulların sevincini yaşayır**

Bu arada, mövzu ilə bağlı onu da qeyd edək ki, hələ də ağıllarını başlarına toparlaya bilməyən, qısa zaman kəsiyində torpaqlarımızdan rədd olacaqlarını yaxşı bilən başda Araik Arutyunyan olmaqla separatçı-quldurlar çetesi növbəti "layihə" istifadəyə verməyə hazırlaşırlar. Bu dəfə isə Araik "uşaq-yeniyetmə idman meydançasının açılışında" iştirak edibmiş. Hələ bu harasıdır? Araik "vəd" verib ki, gələn il bu



icmanın yaşadığı ərazilərə asfalt yol da çəkiləcək. Onu da qeyd edək ki, yalnız Araik deyil, ondan əvvəlki qurama "prezident" Bako Saakyan da, ondan əvvəlki kukla-"prezidentlər" də eyni vasitələrlə erməni fondlarını çapıb-talamaqla məşğul olublar.

*İndi isə bir fakta da diqqət edin. Bu, tamamilə başqa bir fonddur - Əsgəran rayonunda qalan separatçı "Gələcək nəsil" fondu...*

## Qarabağda, RSK-nın müvəqqəti nəzarəti altında yaşayan ermənilər Araik Arutyunyanı yeyintilərdə, çapıb-talamalarda, oğurluqlarda və s. bu kimi məsələlərdə ittiham edirlər

Lakin göründüyü kimi, artıq son vaxtlar ümumiyyətlə, erməni diasporuna məxsus "Hayastan" fondunun adı çəkilmir və bundan sonra da çəkilməyəcək. Məsələ həm də ondan ibarətdir ki, son zamanlar Qarabağda, RSK-nın müvəqqəti nəzarəti altında yaşayan ermənilər Araik Arutyunyanı yeyintilərdə, çapıb-talamalarda, oğurluqlarda və s. bu kimi məsələlərdə ittiham edirlər.

**FOTO: Araik Arutyunyanın yeyinti vasitəsi - karton evlər**



Söz yox ki, zamanında "Hayastan" fondu da qanunsuz inşaat işləri apararkən Araik bu fondun maliyyəsindən dəfələrlə bəhrələnmişdi. Torpaqlarımız geri alındıqdan sonra isə həmin fond əlini Qarabağdan üzdü, anladı ki, havaya səpdikləri pulları uçub-gedir və Araikin ciblərinə axır. Ona görə də indi separatçı-quldur çetesinin başçısı "nə qopardımsa-qopardım" prinsipi ilə saxta və üzünə belə tüpürülməyən "dqr" adlı qurum vasitəsi ilə guya özündən Qarabağ ermənilərinin "qurucu lideri" düzəldir. Bütün bu kimi oyunbazlıqlar isə kənardan çox süni və açıq-aydın şəkildə uğursuz artistizm kimi görünür.

**FOTO: Daha bir taxta-katron ev**

Və bu gün separatçı-quldurbaşı daha çox "açılışları" edə bilər, amma bütün bunlar sadəcə müvəqqəti kardon, ucuz materiallar yığnağıdır və söz yox ki, əsl sahibləri geriyə qayıtdıqdan sonra hamısı birmənalı olaraq zibilə atılacaq.



Çünki Azərbaycan dövləti öz nəhəng planlarını bu torpaqlarda icra etməyə hazırlaşır. Yaxşı olardı ki, nə qədər vaxtları varsa, Araik və ətrafındakı separatçı tulaları oralardan rədd olsunlar - qəhrəman Azərbaycan əsgəri gəlir!

***Rövşən RƏSULOV***

ANALİTİK

# Kül olan meşələr, yoxsa kül olan gələcək?

**Son illər ekoloji problemlərin kəskinləşməsi ilə meşələrimizdə yanğınların artmasına səbəb olub. Meşələrimiz bizim üçün "Oksigen Fabriki" rolunu oynamaqla yanaşı, iqlimin tarazlanmasında da rolu böyükdür. Eyni zamanda, estetik xüsusiyyətləri ilə mənəvi sakitlik tapmaq üçün əvəzsizdir.**

Hər il minlərlə hektar meşələrimiz yanır. Meşə yanğını canlı bitki və heyvan örtüyünü məhv edən, qismən və ya tamamilə yanaraq sərbəst yayıla bilən yanğındır. Bu yanğınlar əhali tərəfindən ehtiyatsızlıq, səhlənkarlıq və ya qəsdən törədilir. Meşə yanğınlarına ildırımlar, vulkan püskürmələri və həddindən artıq temperatur kimi təbii hadisələrdən, bəzən də insanların atdığı siqaret kötükləri və ya şüursuz yandırılan odlar səbəb olur.

İnsanların səbəb olduğu səhlənkarlıq və ehtiyatsızlıq meşə yanğınlarının ən çox yayılmış səbəblərindəndir. Meşə ərazilərinə atılan tullantılar, meşədə gəzintilərdə qalan zibillər və yandırılan odlar yanğınların baş verməsində əsas faktordur.

Havaların istiləşməsi, quraqlıq şəraiti, quraqlığın artması və yanğın mövsümünün uzanması meşə yanğınları riskinin artmasının səbəblərindəndir.






İqlim dəyişikliyi və istilərin artması bitkilərin daha asan alışmasına, torpağın daha da qurumasına səbəb olduğu üçün yanğınlar daha asan çıxır.

Review of Geophysics elmi jurnalında dərc olunan son məqalələrə görə, yüksək enliklərdə meşəlik ərazilərdə yanmış sahələr bu əsrin əvvəlindən ən azı 50 faiz artıb. Hava istiliyinin hər il yüksəlməsi ilə idarəolunmaz yanğın probleminin daha da artacağı gözlənilir.

Birləşmiş Millətlər Təşkilatının (BMT) Ətraf Mühit Proqramının bu ilin əvvəlində açıqladığı hesabata görə, qlobal miqyasda "fövqəladə yanğınların" 2030-cu ilə qədər 14 faiz, əsrin sonunda isə 50 faiz artacağı gözlənilir.

Bununla belə, bir vaxtlar ekosistem üçün kritik əhəmiyyət kəsb edən yanğınların indi daha tez-tez və şiddətli xarakter alması ilə bağlı narahatlıq artır.

ABŞ-ın Qlobal Dəyişiklik Tədqiqat Proqramının 2017-ci il hesabatında qeyd olunub ki, son illərdə meşə yanğınlarının aktivliyində ciddi artım müşahidə olunub.

İqlim dəyişikliyi meşə yanğınlarına səbəb ola biləcək isti, quru hava riskini artırır. Gələcək nəsillərin meşələri azalır. Karbon və oksigen tarazlığı oksigenə qarşı pozulduğu üçün atmosferdə yığılan karbon qazının artığı iqlim dəyişikliyinə səbəb olur. Ekoloji tarazlıq pozulur. Bu isə gələcək illər üçün dünyamızın böyük təhlükə ilə üzüzə olduğundan xəbər verir.



Meşə yanğınları Azərbaycanı da cənginə alıb. Avqust ayında ölkənin dörd rayonunda (Qəbələ, Şabran, Quba və Siyəzən) bir anda meşə yanğınları başladı. Səbəb isə yay aylarının isti keçməsidir. Yanğınlarla mübarizəni çətin relyef və yanğını daha da genişləndirən güclü külək də çətinləşdirir. Yanğının söndürülməsi üçün amfibiya təyyarələri və helikopterlərdən istifadə olunub, çoxlu sayda yanğınsöndürən, xilasedici və könüllülər çalışır. Statistikaya əsasən, 2021-ci ildə Azərbaycanda 41 meşə yanğını baş vermişdi.

Azərbaycanın coğrafi ərazisinin meşə fonduna ayrılan hissəsinin 95 faizi dağlıq ərazilərdə yerləşir. Bunun da 49 faizi Böyük Qafqaz, 34 faizi Kiçik Qafqaz dağları, təxminən 14-15 faizi Talış dağları və yerdə qalan 5 faizi isə Aran rayonlarının payına düşür. Həmin statistikaya uyğun olaraq da yanğınlar daha çox dağ meşələrində baş verir. Dünən 22 avqust isə Şəki rayonunun Kiş kəndi yaxınlığında meşə ərazisindəki kolluq sahənin yandığını Ekologiya və Təbii Sərvətlər Nazirliyi bildirib.

15 avqust tarixində Qəbələ rayonunun Abrıx və Tikanlı kəndləri yaxınlığında və Tufandağ ərazisində təqribən 4 hektar ərazidə kol-kos və qurumuş ağaclar, eləcə də Xaçmaz rayonunun Sibiroba kəndi yaxınlığındakı əkin yerlərində və meşə massivində ümumilikdə 32 hektar ərazidə biçilmiş taxıl sahəsi, kol-kos və qurumuş ağaclar yanıb.

## *Dünyada meşə yanğınları*

### Avstraliyada

2019-cu ildə və 2020-ci ilin əvvəlində Avstraliyada baş vermiş dağıdıcı meşə yanğınları vəhşi təbiət üçün ən dəhşətli fəlakətlərdən birinə çevrilib. Avstraliyada meşə yanğınları təxminən üç milyard heyvanın tələf olmasına və ya məcburi köçməsinə səbəb olub. Yanğınlardan 2,46 milyard sürünən, 180 milyon quş, 143 milyon məməli və 51 milyon qurbağa zərər çəkib. Çox güman ki, alovdan qaça bilən heyvanlar da məhv olub. Çünki bu yanğın onların qida mənbələrini



məhv edib.

Nəsli kəsilmək təhlükəsi altında olan 100 növ yerli bitki və heyvanat aləminin yaşayış sahələri iki dəfə azalıb. Bundan əvvəl yanğınlardan daha çox zərər çəkmiş şərqi Yeni Cənubi Uels və Viktoriya ştatlarında bir milyard heyvanın tələf olması barədə məlumat verilib.

2019-cu ilin sonlarında və 2020-ci ilin əvvəllərində baş vermiş yanğınlar bütün Avstraliya üzrə 115 kvadrat kilometrdən çox meşə və kolluq ərazini məhv edib. Yanğınlar nəticəsində 30 nəfər ölüb, minlərlə ev dağılıb.

"Bu, müasir Avstraliya tarixində ən uzun sürən yanğın idi. Alimlər bunun baş verməsini iqlim dəyişikliyi ilə əlaqələndirirlər. Qlobal istiləşmə Avstraliyanın yayını uzadaraq onu daha təhlükəli edib", - deyə "Al Jazeera" xəbər verir.

Son vaxtlar aparılan hesablamalara görə, Avstraliyada yanğınların baş verdiyi ərazilərdə heyvanların sayı 10 dəfə azalıb.

## Avropada

Bildirilib ki, bu ilin əvvəlindən Avropa Birliyi ölkələrində meşə yanğınlarının sayı eyni dövr üçün 15 illik orta göstəricidən təxminən 4 dəfə çoxdur. Avropada rekord istilik dalğası davam edərkən, İspaniya, İtaliya, Portuqaliya, Yunanıstan, Fransa və Almaniyada baş verən meşə yanğınları nəticəsində minlərlə hektar ərazi külə dönüb.

## ABŞ-da

ABŞ-da ən böyük aktiv meşə yanğını Yosemit Milli Parkı yaxınlığında sürətlə yayıldığı üçün Kaliforniyanın bəzi yerlərində fövqəladə vəziyyət elan edilib. Yanğının söndürülməsinə 400-ə yaxın yanğınsöndürən və dörd helikopter cəlb edilib.

## Türkiyədə

2021-ci ilin iyul-avqust aylarında Türkiyənin cənub regionlarındakı meşələrdə baş vermiş ölkə tarixindəki ən pis meşə yanğınları mövsümü. Böyük qismi Aralıq dənizi, Egey, Mərmərə ve Cənub-şərqi Anadolu regionlarındakı 47 ildə yaranmış 239 meşə yanğınında 9 nəfər həyatını itirmiş, yüzminlələ hektar meşə və yaşayış yeri külə dönmüş və minlərcə heyvan tələf olmuşdur.

Meşə yanğınları 28 iyul 2021-ci il tarixində ilk olaraq Antalyanın Manavqat ilçəsində, təxminən 37 °C (99 °F) temperatur ilə başlamışdır. Yanğın küləyin və isti hava temperaturunun da təsiri ilə yaşayış yerlərinə sıçramışdır. 30 iyul tarixində Adana, Osmaniyyə, Mersin və Kayseri daxil olmaqla ümumilikdə 17 ərazidə eyni vaxtda yanğın baş vermişdir.

## 1871-ci il, Çikaqo yanğını...

"Böyük Çikaqo yanğını" olaraq tarixə düşən dəhşətli meşə yanğını 8 oktyabr 1871-ci ildə baş verib. İki gün davam edən, şəhərin cənub-qərb bölgəsini əhatə edib. Hadisə nəticəsində 300 nəfər həlak olub, 100 min insan evsiz qalıb. 17 mindən çox bina dağılıb. Ölkəyə təxmini 200 milyon dollar ziyan dəyib.

SİA mövzu ilə əlaqədar ekoloqların fikrini öyrənib.

**"Ekoloq-Jurnalistlər" İB sədri Cəmşid Quliyev bildirib ki, meşə yanğınları ölkəmizdə hər il baş verir:** "Əvvəlki illərin yanğınlarına diqqət etsək görərik ki, bu il əvvəlki yanğınlardan çox deyil. Yanğınların müxtəlif səbəbləri olur. Bəzən meşə yanğınları havanın həddən artıq isti keçməsinə görə ağacların yarpaqlarının həddsiz qurumasından sonra alovlanması ilə nəticələnir.



Anomal istilərin müşahidə olunduğu regionlarda belə yanğınlar yaranır. Meşə yanğınları bəzən də turist kimi istirahət etmək istəyən insanların meşədə ocaq qalaması və ya siqaret kötüyünü yerə atması nəticəsində olur. Bu məsuliyyətsiz davranış nəticəsində ot və kollar yanır, alov ağaclara keçməsi ilə daha da böyüyür. Meşə yanğınlarının səbəbi hər zaman eyni olmur. Bəzən insanların qəsdən və ya bilmədən meşədə od yandırması da səbəb olur. Bu, cinayət aktı olaraq qəbul edilir. Qəsdən meşə yandırma halları ilə cinayət məsuliyyətinə cəlb edilir. Ötən gün kəndlinin qəsdən meşəyə od vurması videosu yayılmışdı. Əslində isə, videoda aydın göründürdü ki, şəxs öz həyətyanı sahəsini təmizləyərkən, topladığı bitki qalıqlarını, kol-kosu yandıraraq təmizlik həyata keçirir. Gedən zaman alovu yaxşı söndürməyib, gecə küləyin artması ilə közlər alovlanıb yenidən yanğının davam etməsinə səbəb olub. Göründüyü kimi, bir çox hallarda ehtiyatsızlıqdan və ya qəsdən meşə yanğınları baş verir".

**Mövzu ilə bağlı SİA-ya fikirlərini bölüşən ekoloq Telman Zeynalov bildirdi ki,**



**meşə yanğınları hər il bütün dünyada baş verir:"** Düşünürəm ki, meşədə rütubət olduğundan iqlim dəyişikliyi və ya isti hava meşə yanğınlarına səbəb olmur. Son zamanlar baş verən meşə yanğınlarının yaranma səbəbinin çoxu qəsdən törədilmiş meşə yanğınlarına aiddir. Meşələrdə 95 faiz rütubət olduğundan iqlim dəyişməsi meşədə yanğın törədə bilməz. Bu qəsdən və ya etinatsızlıq səbəbilə baş verir".

Diqqətsizlik və səhlənkarlıq ucbatından hər il hektarlarla meşələr qısa müddətdə yox olur. Meşə yanğınları nəticəsində meşələrimiz kül olur.

Xüsusilə havanın temperaturunun ən yüksək həddə çatdığı yay aylarında meşə yanğınları da artır. Həm təbii həyata, həm də ekosistemə mənfi təsir göstərən meşə yanğınlarının qarşısını bu tədbirlərlə ala bilərsiniz.

## Ehtiyatsızlıq nəticəsində baş verən meşə yanğınları

1. Heç bir təhlükəsizlik tədbiri görmədən meşədə od qalamaq
2. Odu sönmədən qoyub getmək
3. Sönməyən siqaret kötüklərini və kibritləri yerə atmaq
4. Meşədə və ya ona bitişik sahələrdə arzuolunmaz otların və ya küləşlərin yandırılması
5. Gecə işıqlandırması üçün odla meşədə gəzmək
6. Meşədə şüşə və qırıqlar qoyub

## Qəsdən meşə yanğınları

1. tarlaları və ya otlaqları genişləndirmək üçün meşənin qəsdən yandırılması
2. Meşədə qeyri-qanuni görülən işləri gizlətmək üçün yanğınların yaradılması
3. Kimdənsə qisas almaq və ya nəyisə təxribat etmək üçün od yandırmaq
4. Vəhşi heyvanları uzaqlaşdırmaq və qovmaq üçün yanğınlar başlatmaq

Meşə yanğınlarının baş verməməsi və ekosistemin pozulmaması üçün odla davranarkən ehtiyatlı və məsuliyyətli olmalı, əgər yanğın baş verərsə, dərhal aidiyyatı üzrə qurumları xəbərdar etməliyik. Unutmayaq ki, meşələrimiz oksigen mənbəyi olmaqla yanaşı, bir çox heyvanın evidir. Meşə yanğınları onların da həyatını təhlükəyə atır. Eyni zamanda, bir çox heyvan meşə yanğınlarında tələf olması nəsillərinin tükənməsinə və ya azalmasına səbəb olur.

Planetimizin ağ ciyərlərini qoruyaq. Meşələrin yanması həm bitki, həm də heyvanların məhvi deməkdir. Meşə yanğını atmosferin, insan həyatının məhvidir. Bu mənada, meşə yanğınları ilə bağlı daha çox bilgiyə sahib olmalı və insanların da daha çox məlumatlanmasına şərait yaratmalıyıq.

***Qönçə Quliyeva***

# Misir KİV-də Azərbaycan XİN-in Ermənistanın əsassız ittihamlarını rədd edən məlumatı yayımlanıb

**Misirin "Əl Diplomasi", "Rayət-misr", "Yeni dünya xəbərləri" portalları və "Asia Əl Yom" agentliyinin saytında Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistanın əsassız ittihamlarını qətiyyətlə rədd edən məlumatı haqqında ölkəmizin Misirdəki səfirliyinin mətbuata açıqlaması yayımlanıb.**


البيان الصحفي لسفارة جمهورية أذربيجان بالقاهرة حول الاتهامات التي يطلقها الجانب الأرميني

AZƏRTAC xəbər verir ki, məlumatda Ermənistan XİN-in Azərbaycanı üçtərəfli Bəyanatı pozmaqda ittiham etməsinin riyakarlıqdan başqa bir şey olmadığı bildirilib. Misir ictimaiyyətinin diqqətinə çatdırılıb ki, Azərbaycan tərəfi Ermənistan tərəfindən üç ölkə liderlərinin imzaladığı 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarının yerinə yetirilmədiyi, xüsusilə də erməni silahlı dəstələrinin hələ də Azərbaycan ərazilərindən çıxarılmadığını dəfələrlə bəyan edib. Üçtərəfli Bəyanatın 4-cü maddəsinə əsasən "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir".

Məlumatda bildirilib ki, qeyri-qanuni erməni silahlı qüvvələrinin Azərbaycan ərazilərində mövcudluğuna dair Azərbaycan tərəfində olan çoxsaylı dəlillərə əlavə olaraq, bu fakt erməni rəsmiləri tərəfindən də etiraf edilib. Belə ki, Ermənistan silahlı qüvvələrinin Baş Qərargah rəisinin müavini Saak Saakyanın bu il iyunun 29-da hərbi xidmətə çağırılan vətəndaşların valideynləri ilə görüşdə "Qarabağ bölgəsində müddətli erməni hərbi xidmətçilərinin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları ilə əvəzlənəcəyinə" dair söylədikləri, habelə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın 19 iyul 2022-ci il tarixli müsahibəsində "Ermənistan silahlı qüvvələrinin bölmələrinin Qarabağdan çıxarılması bu ilin sentyabr ayında başa çatacaq" söyləməsi Ermənistanın üzərinə götürdüyü öhdəliklərə zidd olaraq, hələ də silahlı hərbi birləşmələrini qonşu dövlətin ərazisində qeyri-qanuni saxladığını bariz şəkildə göstərir.

Səfirliyin açıqlamasında vurğulanıb ki, son gərginliyə səbəb qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycan ərazilərində mövcudluğu və təxribatlara əl atması olub. Belə ki, avqustun 3-də Azərbaycan əsgərinin şəhid olması ilə nəticələnən qanlı insident də məhz Ermənistanın öhdəliklərinin yerinə yetirməməsinin nəticəsidir.

Məlumatda daha sonra qeyd olunub: "Üçtərəfli Bəyanatın 6-cı bəndinə istinad edərək, Azərbaycanı müvafiq müddəanın pozuntusunda ittiham edən Ermənistan XİN-in diqqətinə çatdırırıq ki, Laçın dəhlizi üzrə yeni yolun inşası razılaşdırılmış marşrut üzrə artıq uzun aylardır ki, gedir və Ermənistan tərəfi bu yol ilə bağlı kifayət qədər məlumatlıdır. Əgər Ermənistan tərəfi üçtərəfli Bəyanatın digər müddəaları kimi bu öhdəliyin də həyata keçirilməsini müxtəlif bəhanələrlə ləngitmək məqsədini güdürsə, bu, bir daha Ermənistanın qeyri-konstruktiv və üçtərəfli bəyanatların və digər razılaşmaların icrasına münasibətdə pozucu fəaliyyətinin bariz nümunəsidir. Bölgədə sülh və sabitliyin təmin olunması, habelə münaqişə sonrası normallaşma üçün üçtərəfli Bəyanatın tam icrası vacibdir. Azərbaycan, öz tərəfindən üzərinə götürdüyü öhdəlikləri tam yerinə yetirir və Ermənistan tərəfinin də bu öhdəliklərə əməl etməsini qətiyyətlə tələb edir".



# "İşğaldan sonra Laçına Suriya və Livandan qanunsuz ermənilər köçürülüb"

**"Son vaxtlar erməni diasporu informasiya cəbhəsində hücuma başlayıb ki, tarixən, guya 4-cü əsrdən Laçında ermənilər yaşayıb. Bu, tamamilə yalandır". SİA-nın verdiyi məlumata görə, bu sözləri bu gün Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində təşkil edilən "Laçın: Post münaqişə dövrünün yeni mərhələsi" adlı dəyirmi masada BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib.**

Onun sözlərinə görə, 1992-ci ildə, işğaldan əvvəl Laçın əhalisinin 99 faizi azərbaycanlılar olub, cəmi 300-ə qədər erməni yaşayıb: "İşğaldan sonrakı dövrdə Laçına Suriya və Livandan qanunsuz ermənilər köçürülüb, onlar özləri də bunu etiraf edirlər. İndi erməni diasporu səs-küy salır ki, bu insanlar ikinci dəfə qaçqın düşürlər. Bu, qanunsuz məskunlaşdırma olub".

Fərid Şəfiyev qeyd edib ki, erməni diasporunun bu təbliğatına qarşı Azərbaycan mediası aktiv olmalı, Laçın sakinləri də həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında fəal olmalıdır.

***Arzu Qurbanlı***

XATIRLAMA

# İki avqustun bir Şahmarı...

**Həyat nə qədər qəribədirsə, zamanla bu qəribəliyi ömürlərə, talelərə də yansıdır. Elə bu qəribə həyata 79 il öncə avqustun 23-də bir Şahmar da göz açmışdı, mənalı, lakin qısa ömrü və qəribə taleyi ilə. Həyatın qəribəliyinə bax ki, avqustda gəlmişdi dünyaya, avqustda da dünyadan köçdü: 23 avqust, 12 avqust. Cəmi 50 illik ömrünü iki avqustun arasına sığdırdı bu sənətkar.**

Onun kim olacağını, hansı sahədə, hansı sənətdə özünü tapacağını sanki həyat öncədən duymuşdu. Uğurlarından, hamının onu sevəcəyindən xəbərdar olmuşdu. Bu səbəbdən də qısqanc bir dəliyə çevrilmişdi. Tək həyatmı, xeyr. Şahmar Ələkbərovun ətrafında onlarla belə "dəlilər" vardı, buna əsla şübhəmiz yoxdur. Çünki o, Azərbaycan kino aləmi üçün bir yenilik, daha doğrusu, tapıntı idi.









Biz nəsil Şahmar Ələkbərovu tanıyanda uşaq idik. Azərbaycan kinosuna yaraşıqlı bir aktyor gəlmişdi. Onun filmləri ilə böyüyüb yeniyetmə, gənc olduq. Onu hansı obrazda, hansı rolda görürdüksə, "sanki bu rol üçün yaranıb" deyirdik. Çünki o, istedadlı idi, obrazı yaratmaq qabiliyyəti vardı. Artıq biz də gəncləşib həyatı başa düşəndə bilmirdik filmlərdəki bu gənc, yaraşıqlı oğlanın camalına, oynadığı rola tamaşa edək, yoxsa qulaqlarımızı oxşayan heyrətamiz səsinə qulaq asaq. Mənim fikrimi saysız adam təsdiqləyərlər ki, Şahmar Ələkbərovun iştirak etdiyi filmə bir dəfə baxmaqla bu filmi anlamaq olmurdu. Çünki yaraşığı, cəlbediciliyi, səs diksiyası arasında fikir dağınıqlığı yaşayırdın. Sözsüz ki, ona tamaşa etmək üçün oynadığı filmlərə dəfələrlə baxırdıq. Nəticədə isə onu yenidən görür, filmi isə anlayırdıq.

İlahi, bu qədər gözəl səs ola bilərdimi? Sanki Ulu Yaradan iki Şahmar yaratmışdı. Biri özü idi, biri səsi. Onların hər ikisi ayrı-ayrılıqda ayrı-ayrı dünyalar idi, bir Şahmarda birləşmişdi. Onların hər ikisi ayrı-ayrılıqda bir sənət idi, hər ikisi bir Şahmarda birləşmişdi.

Xalq artisti Şahmar Ələkbərov "Dağlarda döyüş", "Mən ki gözəl deyildim", "Yeddi oğul istərəm" , "Axırıncı aşırım", "Qızıl qaz", "Həyat bizi sınayır", "Bizim küçənin oğlanları" , "Qatır Məmməd", "Firəngiz", "Arxadan vurulan zərbə", "Babək", "Əlavə iz", "Nizami", "Ötən ilin son gecəsi" kimi filmlərlə Azərbaycan kinosunda öz sözünü dedi. Yaddaşlarımıza həkk olan, indi də tamaşa etdiyimizdə bizləri o illərə, Şahmarlı bir dünyaya aparır o filmlər. Şahmar sevgisinə, dəyərinə aparır...

Yəni nə o sevgilər, nə də o dəyərlər aradan Şahmarsız 30 il ötsə də, zərrə qədər azalmayıb. Çünki Şahmar Ələkbərov gözlərimizdə o illərin görüntüsündə, eyni sevgidə, eyni dəyərdə qalıb, qalacaq da... O heç qocalmadı ki?..

Nə deyəsən həyata? Qarğış, bədduamı edəsən? O, kimləri almır ki, əlimizdən, sevdiklərimizin hamısını qısqanır bizə. Qarşısında acizlikdən başqa çarəmiz qalmır zaman-zaman. Sadəcə gözlərimizdən yaş axıdır, ürəyimizin kədərini özümüzlə bölüşür, xatirələri dərdimizə dərman edirik. Nə deyəsən həyata ki, gətirib bizə Şahmar kimi sənətkarları göstərib, az sonra da əlimizdən alıb aparıb. Nə deyəsən həyata ki, biz insanlardan da qısqancdır, dəli qısqanc. Bu qısqanclığı imkan verərmi sevdiyin, dəyər verdiyin insanla uzun bir yol gedəsən?..

Kəsəcək yolunu, maneələrini çıxaracaq qarşına. Yıxacaq səni, çırpacaq daşlara, dizlərində yaralar açacaq, sızladacaq, ağrıdacaq... Diz nədir ki, bu həyat ürəklərə elə dağlar çəkir ki, dizlərin yarası sağalır, yaraların izi belə silinir, lakin ürəklərin dağı düyünə çevrilir, ərimir ki, ərimir. Şahmar Ələkbərovun ürəklərimizdə düyünlənən, hələ də ərimək bilməyən ömrü kimi. Bu düyün daşlaşıb artıq, qəlblərimizdə bir Şahmar abidəsi ucaldıb. Sevdiyimiz aktyorun, rejissorun abidəsini. O, qəlbimizdə həyat rəngdə olan obrazları yaradır, təqdim edir bizlərə. Baxdıqca həyatı daha yaxından tanıyırıq. Neçə qalın bir kitab, vərəqlədikcə vərəqlənən səhifələri olduğunu görürük. Şahmarın səsini dinləyir, bu səslə ruhumuza rahatlığı, hüzuru çökdürürük...

Bəli, ötən 30 il qəlbimizə Şahmar adını heç unutdura bilmir. Unutdura bilməyəcək də. Həyatın gücü almağa çatır, unutdurmağa yox... Alsın, qarşısına çıxa bilmərik ki... Bizdə-içimizdə, ruhumuzda, xatirələrimizdə olanları almağa gücü çatmaz bu həyatın. Şahmar Ələkbərov da ruhumuza, içimizə, xatirələrimizə hopdurduğumuz üçün daim bizimlədir.

İllər ötər, zaman keçər, yenə də "bir Şahmarımız var idi", deyə xatırlayacağıq. İki avqustun bir olan Şahmarı. Həyatdan cəmi 50 yarpaq qopara bilən Şahmarı. O gözəl qamətinə, heyrətamiz səsinə, diksiyasına zamanında üzərlik yandırmadığımız, göz muncuğu taxmadığımız, elə bu səbəbdən də həyatın düz dilindən vurduğu Şahmarı... Unutmayacağıq...

Qürrələnmə, həyat... Unutma ki, qarşındakılar Şahmar Ələkbərovu milyonlarla sevənlərdir. Elə bu sevgi ilə də o, sən həyatın da, bizim qəlblərimizin də şahı olaraq qalacaq... Əbədiyyən...

***Mətanət Məmmədova***

# Ölkədə qida təhlükəsizliyi ilə bağlı hansı addımlar atılır

**"Ölkədə qida təhlükəsizliyini təmin etmək üçün bir çox məsələlər var. Həmin məsələlər qida təhlükəsizliyi haqqında qanunda öz əksini tapmayıb. Hazırda keyfiyyət məsələsi masanın üzərində qalıb. Heç kim keyfiyyətlə məşğul olmur". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.**

Onun sözlərinə görə, keyfiyyətin yüksəldilməsi ilə bağlı ayrıca qanun olmalıdır: "Keyfiyyət məsələsi önə çəkilməlidir. Ən azından Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin əsasnaməsində ciddi dəyişikliklər olmalıdır. İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeçiliyində olan standart institutuna status verilməli və qidanın keyfiyyətini təmin edən müəyyən tədbirlər görülməlidir. Təəssüflər olsun ki, 2022-ci ilin 18 may tarixində Nazirlər Kabinetinin 343 saylı qərarı ləğv olundu. Bu qərar malların təhlükəsizliyini təmin edirdi. Hazırda təkcə qida yox, həmçinin digər təhlükəli mallar da ölkəyə gətirilərək istehsal olunur. Həmçinin, istehlakçı hüquqlarını qoruyan dövlət qurumu fəal işləməlidir".



Eyyub Hüseynov həmçinin qeyd edib ki, AQTA-nın mövcud əsasnaməsi əsasındakı fəaliyyətində böyük çatışmazlıqlar var: "AQTA qidanın təhlükəsizliyinin təmin olunması məsələsinə əlçatanlığı təmin etmək üçün mütləq ictimaiyyətlə yaxşı işləməlidir. AQTA ictimai rəydə gedən məsələləri təqib etmir. İctimai müzakirə olan məsələlər nə vaxta qədər təmin olunmayacaq, araşdırılmayacaqsa, əlbəttə ki, AQTA lazımi hədəflərə çata bilməyəcək. İkinci bir məsələ AQTA insanların inamını qazanmalıdır. İnsanlar öz gözləri ilə gördüklərinə üstünlük verirlər. AQTA KİV-lə, əhali ilə sıx və qarşılıqlı olaraq işləməlidir. Bir sözlə, elə bir iş aparılmalıdır ki, əhali AQTA-nın sənədi olmayan məhsulu almasın. Qida təhlükəsizliyinə dair dövlət strategiyasının ampluasında qida zəhərlənmələrinin miqdarı göstərilir. Dünya statistikasına uyğun olaraq Azərbaycan ildə 450 nəfər qida zəhərlənməsindən dünyasını dəyişir".

***Arzu Qurbanlı***

# İqtisadiyyatımıza təsir göstərən əsas amillər hansılardır?

***İqtisadiyyatın ən təsirli və nəticə əsaslı mexanizmləri sırasında vergi və gömrük stimullarının tətbiqi daha çox əhəmiyyət kəsb edir. Vergi ödəmələrə müxtəlif mənbələrdən olan mənfəət və gəlirlərə görə vergilər, o cümlədən əmlak icarəsindən vergilər, dividend və kapital vergiləri, maliyyə köçürmələrindən əldə edilən gəlirdən vergilər, işəgötürənin ödədiyi əmək vergiləri, sosial ayırmalar, əmlak, avtomobil və yol vergiləri və sair aid edilir.***

Həm vergi güzəşti və azadolmaların səmərəliliyinin təmin edilməsi, həm də vergi inzibatçılığının təkmilləşdirilməsi, o cümlədən, vergi-gömrük rüsumlarının ödənilməsi ilə bağlı məmur-vətəndaş təmasının minimuma endirilməsi nəzərdən keçirilməlidir. Optimallaşmış vergi rejiminin qəbulunda məqsəd vergi yükü azaldılmaqla, həmçinin inzibati prosedurlarda güzəştlər və tətillər verilməklə, vergi sisteminin və inzibatçılığının çevikliyinin qorunması, sahibkarlıq subyektlərinin stabil fəaliyyətinin təmin edilməsidir.

Ümumiyyətlə, iqtisadiyyatın tarixinə baxanda bütün dünya ölkələrində qədimdən ticarət formalaşmağa başlayandan bəri hər bir ölkənin gücü, imkanı onun ticarət dövriyyəsi daha çox ixrac imkanları ilə qiymətləndirilib. Ölkədə çalışırdılar ki, həmişə ixrac halları üstələmiş olsun və idxalın özündə də önəm verilən məsələ idxalın məhz daxili qurma məsələsi ön plana çıxırdı. Bu məsələdə ən önəmli rolu gömrük oynayır.

**İqtisadçı-ekspert Elman Sadıqov** SİA-ya açıqlamasında gömrük rüsumlarının ölkə iqtisadiyyatına olan təsirlərindən danışıb.



Gömrüyün bir nömrəli vəzifəsi daxili bazarı qorumaqdır. İstehsal olunan malların idxal nəticəsində məhv olmamasıdır. Və onların rəqabətin davamlılığına yardım etməkdir. Həm də investisiya təşviqidir və bu işdə böyük rol oynayır. İqtisadiyyat nazirliyinin göstərdiyi istiqamətlər ölkədə inkişaf etməlidir. Həmin sahələrdə investiyanın təşviqi, istehsalın genişlənməsi üçün gömrük komitəsinin üzərinə ciddi vəzifələr düşür. Söhbət emal və istehsaldan gedirsə, həmin emal və istehsal sahəsində olan avadanlıqların gömrük rüsumlarından azad olunması vacib məsələdir. Məsələn daxili bazarda istehsal olunan və daxili bazarda istehlakı geniş yayılmış məhsulların xarici məhsullara rəqabətdə tab gətirməsidir. Hələlik, ümumdünya ticarət təşkilatına daxil olmamışıq. Həmin ticarət təşkilatına daxil olarkən bir sıra gömrük rüsumları ilə bağlı fərqli siyasət yürütməyə məcbur olacağıq. Təşkilata daxil olmaq üçün öz siyasətimizi müəyyənləşdirib daxildə emalı və istehsalı daha da stimullaşdırmaq lazımdır. Gömrüyün qaçaqmalçılıqla mübarizədə çox önəmli rolu var və bu, bütün dünyada belədir. Nəticə etibarilə rüsumların artıq və əskik olması nisbi məsələdir. Elə sahələr var ki, orada gömrük rüsumları çox olsun .Çox olmasının səbəbi məhsullar ölkəmizdə istehsal olunmamasıdır. Önəmli məsələlərdən biri də ölkəmizdə dizellə işləyən avtomobillərlə benzinlə işləyən avtomobillərin eyni rüsumda olmasıdır. Düşünürəm ki, hazırkı dövrdə xüsusilə ekoloji məsələlər baş qaldırdığı dönəmdə dizelin daha çox kənd təsərrüfatı sahəsində işlənilməsi və onun qiymətinin aşağı tutulması, məhz dizellə sürülən avtomobillər ölkədə çox da yayılmır. Müəyyən tendensiyaları nəzərə alaraq belə avtomobillərə hələ də gömrük rüsumu ilə bağlı 0 ƏDV vardır, amma 0 gömrük rüsumunun olması da çox yaxşı olardı. Sözügedən məsələ həmçinin hibrid avtomobillərə də aiddir.

Emal və istehsal müəssisələri üçün lazım olan avadanlıqlardır, ümumiyyətlə iqtisadi inkişafa təkan verəcək məhsulların gömrük rüsumlarının minimum olması ölkədə investisiyanı genişləndirər və istehlakı olub istehsalı olmayan məhsullar vardır ki, bunların da yüksək gömrük rüsumları ilk baxışdan peşəkar olmayan səviyyədə yanaşdıqda iqtisadiyyatın inkişafını ləngidir. İnsanlar telefona və ya digər avadanlıqlara müəyyən qədər pul xərcləyir və o pulu xərclədikcə ölkə daxilində həmin məhsullar istehlakını aşağı salırlar, nəticədə ölkə daxilində dövriyyənin azalmasına gətirib çıxarır. Gömrük məsələsinə yenidən kompleks şəkildə yanaşmaq lazımdır. Mövcud rüsumlar üzərində müəyyən düzəlişlər aparmaq, ya da ümumiyyətlə, gömrük siyasətinə yenidən bir baxış keçirmək lazımdır.



Keçmiş deputat Qulamhüseyn Əlibəyli isə qeyd edir ki, quru sərhədləri bağlı olana qədər və hazırkı vaxtda işsizliyin statistikasına təsir göstərir. Məsələ burasındadır ki, ekspertlərin dediklərinə görə, quru sərhədlərindən daha çox həssas qrupa daxil olan vətəndaşlardır - təhsil alan tələbələr, əsasən kiçik və bəzən də orta biznes təmsilçiləri, gəlirləri nisbətən aşağı olan və qonşu ölkələrə müalicə üçün gedən şəxslər və s. Əlbəttə, əmək miqrasiyası, yəni işləmək üçün Azərbaycana gələn və ya ölkəmizdən gedən şəxslər də yox deyildir. Bu baxımdan, quru sərhədlərinin bağlı olmasının ölkəmizdə işsizlik probleminin həllinə ciddi təsir göstərdiyini güman etmirəm. Quru sərhədlərinin bağlı olmasının ölkəmizdə qida təhlükəsizliyinə təsiri barədə də eyni fikirləri bildirmək olar. Keyfiyyətsin, təhlükəli qida məhsullarının, geni dəyişdirilmiş məhsulların ölkəmizə gətirilməsinin qarşısını almaq üçün quru sərhədlərinin açıq və ya bağlı olması əhəmiyyət kəsb etmir. Bunun üçün, ilk növbədə, qida məhsullarının idxalına nəzarət mexanizmi təkmilləşdirilməli, mövcud inhisarçılıq aradan qaldırılmalıdır.

Qonşu ölkələrdə baş verənlər, xüsusən də, Rusiyanın Ukraynaya hərbi təcavüzü təkcə ölkəmizdə deyil, bütün dünyada ərzaq təhlükəsizliyi üçün ciddi təhlükə yaradır, ümumdünya ərzaq böhranına gətirib çıxara bilər. Söhbət Ukraynanın taxıl ehtiyyatının dünya bazarına çıxarılmasının çətinliyindən və həmin taxılın Rusiya tərəfindən mənimsənilməsindən gedir. Bu təhlükəni aradan qaldırmaq üçün isə quru sərhədlərinin bağlı saxlanması vacib deyil. Alternativ taxıl mənbələri axtarmaq lazımdır və bildiyim qədər bu barədə müəyyən işlər görülür. Həmin müharibə nəticəsində Azərbaycana qaçqın axını gəlməsindən ehtiyatlanmağı da yersiz hesab edirəm. Belə ki, Ukraynada yaşayan Azərbaycan vətəndaşlarının çox hissəsi artıq ölkəmizə qayıdıb. Qaçqın Ukrayna vətəndaşları isə daha çox Avropa ölkələrinə üz tuturlar. Terrorçular və qanunsuz silahlı dəstələr onsuz da Azərbaycanın sərhədlərini Rusiya hərbi kontingentinin nəzarəti altında olan Laçın dəhlizi vasitəsilə keçib ölkəmizə daxil olurlar. Ona görə də müxtəlif bəhanələrlə quru sərhədlərinin bağlı saxlanılması yolverilməzdir. Azərbaycan hökuməti nəhayət, bu sadə həqiqəti qəbul etməlidir.



**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili** isə deyib ki, rüsumlarda 2-3 dəfə artım yoxdur: "Bəzi rüsumlarda 20, 30, 40, 50 faiz artımlar var. Təbii ki, istənilən artım insanların cibinə təsir edir. Biz bunu qəbul edirik. Ancaq pensiya və maaşlar da artırılır. Dəbbə pulunun çox olması ilə bağlı da bizə müraciətlər daxil olur. Bununla bağlı araşdırmalarımız olacaq". Əlbəttə, bütün bu baş verən proseslər iqtisadiyyatımıza müəyyən qədər gözlənildiyi kimi, 5 ay ərzində ÜDM-in həcmi 1.7%, idxal 26.7%, ixracın həcmi isə 25.3% azalıb.

Azalmalar əsasən beynəlxalq bazar konyunkturasından asılı olan və Azərbaycan dövlətinin atdığı addımlardan asılı olmayan sahələrdə (neftin qiymətinin, ixrac qiymətlərinin azalması, yük daşımalarda azalma və s.) baş verib və bu, gözlənilən idi.

Amma bunlarla yanaşı, ölkənin iqtisadi artım və məşğulluğunu təmin edəcək böyük potensiala malik sahələrdə artımın davam etməsi çox sevindirici haldır. Belə ki, bu ilin 5 ayında qeyri-neft sənayesinin 14%, kənd təsərrüfatı istehsalı həcminin 3.6% və büdcə gəlirlərinin 17% artması ölkəmizin çətin şəraitdə belə inkişaf potensialından xəbər verir. Xüsusi qeyd etmək istərdim ki, təhlillər göstərir ki, hansı sahələrdə aparılan iqtisadi islahatlar daha çox mənimsənilib, o sahələrdə artım davam edir.

O həmçinin qeyd edib ki, ölkədə orta aylıq əmək haqqının artaraq 740 manata çatması əhalinin maddi rifah halı nöqteyi-nəzərindən də mühümdür: "İqtisadçılarda belə bir ümumi fikir var ki, azalmanın olmasından çox azalma tempi daha böyük önəm daşıyır. Bu kontekstdə qeyd etmək istərdim ki, Avropa Birliyində 2-cü rüb üzrə Ümumi Daxili Məhsulun 14% azalması gözlənilir.

İstənilən halda bu ilin 5 ayının nəticələrinə görə Azərbaycan iqtisadiyyatında əsas iqtisadi artım və məşğulluğu təmin edən mənbələrin, yəni qeyri-neft sənayesi, kənd təsərrüfatı məhsulllarının istehsalında mühüm irəliləyişlərin müşahidə olunması dövlətin gördüyü tədbirlərin effektivliyini göstərir.

İqtisadiyyatın ən çox islahatlara məruz qalan sahələrində indiki şəraitdə belə artımın qeydə alınması, ÜDM-də azalma tempinin az olması onu deməyə imkan verir ki, Azərbaycanın pandemiya böhranından minimum itkilərlə çıxmağa iqtisadi imkanları mövcuddur.

***Havar Şəfiyeva***



# Qəzetlər nəyə lazımdır



Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*





***İnternetin inkişafı media sistemini, formatını, peşə qaydalarını, hətta deyərdim ki, peşə prinsiplərini tamam dəyişdi. Elektron media sürətlə print medianı sıradan çıxardı. Klassik media yalnız Almaniya, Fransa, Rusiya, Britaniya kimi ənənəvi oxuma vərdişlərinə yiyələnmiş ölkələrdə hələ də müqavimət göstərə bilir.***

Azərbaycanda isə yazılı mətbuat yalnız dövlət dəstəyi ilə ayaqda qalır. Dövlət əlini çəksə, bir aya ortada bir qəzet, jurnal qalmaz. Buna görə dövlətə ən azı təşəkkür düşür. Çünki çap mətbuatının yaşaması vacibdir. Qəzet-jurnallar sadəcə mətbuat deyil, bu, həm də yazılı, sənədli tarixdir. İstənilən vaxt istənilən qəzetin istəniln nömrəsini arxivdən götürüb oradan bəhrələnmək olar. Lakin internet saytlar haqda bunu demək olmaz. Onların bazaları tez-tez itir, silinir məhv olub gedir. Şəxsən mənim internetdə indiyədək minlərlə yazım olduğu halda, axtarış verəndə 100-nü tapmaq olmur. Amma bütün yazılarım qəzet səhifələrində arxivimdə qalır.

Dövlətin çap mətbuatını qorumasının səbəbləri aydındır. Çünki onların öz gücü ilə ayaqda qalması mümkün deyil. Xüsusən də, bizim kimi qəzet-jurnal oxumağı bir zərərli vərdiş kimi tərgidən cəmiyyətdə. İnformasiya əsrinə, sürət əsrinə gəlib çıxdıq, qəzet jurnallar bu sürətlə ayaqlaşa bilmir, onlar bir xəbəri verənə kimi vəziyyət 3 dəfə dəyişir. Qəzet-jurnal dəyərli təhlillər, xüsusi müsahibələr, dərin araşdırmalar verməlidir ki, saytlardan fərqlənə bilsin. Amma bunu da edə bilmirlər. Çünki bunun üçün böyük maddi texniki baza, peşəkar kadrlar lazımdır, onlar da aşağı qonorara işləmirlər. Reklam bazarı yoxdur deyə qəzetlər mütəxəssislərə, peşəkar jurnalistlərə səviyyəli yazılar yazdıra bilmirlər, ucuz işçi qüvvəsi kimi daha çox gənc praktikantları işlətməyə üstünlük verirlər. Bu da nəticəsini göstərir. Üstəlik, çap mətbuatı yeganə media növüdür ki, ona pul ödəmək lazımdır. Razılaşın ki, hər gün 50 qəpik verib qəzet almağa çoxunun imkanı yoxdur, olan da almır ki, saytlarda pulsuz oxuyuram də.



Yəni, klassik mətbuatın müsbət və mənfi tərəfləri var. Lakin tərəziyə qoysaq, müsbət tərəflər daha ağır gələr. Ona görə də, dövlət çap mətbuatına dəstəyi artırmalı, onların maddi-texniki, kadr bazasını gücləndirməsinə yardım etməlidir. Qəzetlərə həm də mənəvi dəstək lazımdır. Bu baxımdan, bəzi televiziyalarda gündəlik qəzetlərin icmalının verilməsi təqdirəlayiqdir. Bunu radiolarda da etmək olar.

Elektron mediaya gəldikdə burada hər cür imkanlar var. Sadəcə, bu sahədə anarxik vəziyyət olduğundan vəziyyət birmənalı deyil. Bunun müsbət və mənfi tərəfləri var. Müsbət tərəflər aydındır- hər bir faktı, hadisəni əhaliyə daha tez çatdırmaq olur, operativlik yüksəkdir, canlı yayım vermək, limitsiz foto və video əlavə etmək, bunu milyonlarla ünvana çatdırmaq, onlayn göndərmək, interaktivlik təmin etmək imkanı var.

Mənfi tərəflər odur ki, hər cür provakativ reklam və təbliğat xarakterli məlumatlar, saxta və dezinformasiya materiallarını yaymaq asan olur. Bundan başqa, söyüş, təhqir, şantaj imkanları genişdir. Çünki burada mənbəni tapmaq və cəzalandırmaq da çox vaxt mümkün deyil. Adam oturub misal üçün Avstraliyada, Azərbaycandilli bir sayt açıb istədiyi hoqqanı çıxara bilər. Hətta ümummilli və dövlət əhəmiyyətli proseslərdə təxribatlar da törətmək mümkündür. Dəfələrlə bunun şahidi olmuşuq.

Bundan başqa, internet media müsbət tərəflərindən daha çox mənfi tərəfləri ilə ortadadır. Yenə əksəri diletantlar, reketlər, dələduzlardan ibarət olmaqla minlərlə sayt açılıb xəbər yayır. Peşəkarlıq çox aşağı səviyyədə, maddi texniki baza zəif, əhatə dairəsi və müxbir postları şəbəkəsi yox, dünya informasiya məkanına təsir gücü sıfır vəziyyətdə, heç bir etika, ədəb, mənəvi norma yox kimi. Təbii ki, azsaylı istisnalarla. Çoxu 1-2 nəfərdən ibarətdir- o da sayt adminləri.

Bir neçə iri informasiya agentliyi və xəbər portalı var ki, onlarda da vəziyyət qənaətbəxş deyil. Yaydıqlarının 90 faizi hazır rəsmi məlumatlar, əməkdaşların telefonla kimisə danışdırdığı, tədbirlərdən göndərdiyi ”o dedi, bu dedi” qəbilindən ”eksklüziv” xəbərlərdır. Yaradıcılıq, xəbər axtarışı, problem tapıb ortaya qoymaq, analiz etmək və araşdırmaq payı çox azdır.

Müqayisə üçün qonşu ölkələrin elektron mediasına baxsaq, görərik ki, bizdən dəfələrlə üstündürlər və qlobal informasiya məkanına təsir imkanları da bizdən çoxdur. Bunun səbəbləri çox uzundur. Bu sektoru nə tənzimləmək mümkündür, nə nəzarət etmək, nə dəyişdirmək, nə kənardan təsir etmək. Problem fundamental və kompleksdir. Bu, birbaşa dövlət, cəmiyyət və media üçbucağındakı qarşılıqlı vəziyyətlə analoji müstəvidə inkişaf edən bir sistemdir. Medainın dəyişməsi üçüb bu ücbucağın bütün tərəfləri dəyişməlidir.

Dövlət ciddi mətbuata hökumətin hər bir orqanını, məhkəmə, icra və qanunverici orqanın fəaliyyətini dərindən araşdırmaq üçün imkan yaratmalı, hər sahədə problemləri aşkar edib sərt tənqid etməsini, rüşvətxor məmuru, dövlətə zərər vuran vəzifəli şəxsləri ifşa etməsini təmin etməlidir, özü də bunun əsasında müvafiq tədbir görməlidir.

Cəmiyyət isə +18 və şou mövzuların başını buraxıb ciddi siyasi, iqtisadi, mədəni, elmi mövzularda materialları oxumalıdır. İş adamlar, şirkətlər mediaya reklam verməlidir. Televizyalar qəzetləri saytları təşviq etməlidir, onların xülasəsini verməlidir.

Bundan sonra medianın İP qazanmaq naminə cəmiyyətə zərərli, mənəvi dəyərlərə zidd materiallar verməsinə ehtiyac qalmayacaq. Satışdan, abunədən, reklamdan normal gəlir əldə edəcəklər. Nəticədə, peşəkar, savadlı şəxslər işə cəlb ediləcək, medianın nüfuzu artacaq. Cəmiyyət görəndə ki, media həqiqətən 4-cü hakimiyyətdir, ona dəstək verəcək. Media da dövlət və cəmiyyət arasında öz funksiyasını daha layiqli yerinə yetirəcək. Son nəticədə həm dövlətimiz, həm cəmiyyətimiz qazanacaq.

***Elçin Bayramlı***

# İntim video üzərində qurulan kirli siyasət...



## Və ya "kəsiləcəyini" gözləyən qulaq(lar)




**FHN-ə məxsus idarələrdən birində baş vermiş məlum gizli videoçəkiliş faktı haqlı olaraq ictimai rəyi narahat etdi və üstəlik, haqlı qınaqlar, hətta aşırı tənqidlər və tənbehlər də istər mediada, istərsə də sosial şəbəkələrdə kifayət qədər yazıldı, kifayət qədər də danışıldı və s. Təbii ki, və birmənalı olaraq sözügedən mövzu bütövlükdə xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinə xas olmayan bir məsələ kimi gündəmi əməlli-başlı silkələmiş oldu. Çox qısa susqunluqdan sonra isə həmin işdə əli olanlar da daxil olmaqla iştirakçılar cəzalandırıldılar, istefaya göndərildilər, baş rolun ifaçısı isə məsuliyyətə cəlb olundu - o, qanun qarşısında cavab verməli olacaq!**

Ancaq bu kimi hadisəni bütövlükdə bir dövlət qurumunun ayağına yazmaq da doğru məsələ hesab edilə bilməz. Elə isə, gəlin əyri oturaq, düz danışaq. İstənilən dövlət qurumunda istənilən şəkildə qanunsuz hadisələr yaşana bilər və bu günə qədər yaşanıb da! Amma nədənsə bir çoxları ya etiraf etmək istəmirlər, ya da ümumiyyətlə olanı-olduğu kimi deməyə cürət etmirlər ki, hər şeyin nəticəsi olaraq qanun pozanlar günahlarının miqyasına görə cəzalara layiq görülüblər. Bundan sonra da belə olacaq və kimsənin şübhəsi də olmasın ki, olmaya-caq-filan, behməkan, OLACAQ!

Əlqərəz, bu gün FHN idarəsində yaşanan məlum hadisədən öz kirli, hətta murdar, idbar dərəcədə yararlanmağa səy göstərənlər də var. Sosial şəbəkələrdə artıq günlərdir ki, "belə videoların sayı yüzlərlədir", "FHN rəhbərliyi daha betərinə hazır olsun" və s. tipli ürəkbulandıran çıxışların sayı-hesabı yoxdur. Bəs kimlərdir onlar? Əlbəttə ki, yanılmadınız - Avropada "siyasi mühacir" adı altında lələdöyənlik edən Qulaq Qabil, Sevinc Osmanqızı, Qənimət Zahid, Məhəmməd Mirzəli və sairləri... Əllərinə girəvə düşən və həmin girəvədən avropalı və erməni havadarlarının xeyrinə maksimum yararlanmağa çalışan həmin siyasi tullantılar adlarını "müxalifətçi" qoyaraq, əslində, hakimiyyətə qarşı deyil, birbaşa Azərbaycan dövlətinə (!) qarşı laqqırtı vurur, çənə qırırlar.

Fəqət, kiçik bir haşiyə çıxmaqla mövzuya aid ola biləcək balaca xatırlatmanı etmək istərdim. Yadınızdadırsa, Azərbaycan neftininin qiyməti kəskin şəkildə düşəndə "Milli Şura"nın ağzıgöyçəklərindən biri olan Gültəkin Hacıbəyli həmin informasiyanı toybayramla qarşıladı, özükimilərinə gözaydınlığı verdi və həmin sevinc hissi paralel olaraq Ermənistanda da yaşandı (?!-R.R.) Gültəkin sevinirdi ki, məhz neftin qiymətinin azalması nəticəsində Azərbaycan hakimiyyəti yox ha, Azərbaycan dövləti zəifləyəcək, Azərbaycanda kirli maraqları olan xarici siyasi dairələr fəallaşacaq, hətta aclıq başlayacaq və s.

Çox şükür Allaha ki, bunların heç biri yaşanmadı və nəmxuda, bu gün Azərbaycan neftinin qiyməti özünə görə layiqli yerlərdən birini tutur, hətta Avropa İttifaqı öz enerji təhlükəsizliyini Azərbaycan neftinə və qazına həvalə edir! Belə yerdə isə "Bəs nə oldu,



Paşinyan?", məşhur ifadəsinin "Bəs nə oldu, Güliçka?" ifadəsi ilə əvəzlənməsinin tam yeri deyilmi? Ha erməni olsun, ha da bu, nə fərqi var ki?

### Bütövlükdə FHN kimi nüfuzlu dövlət qurumunu hədəfə almaq hansı məqsədlərə hesablanıb?

Nə isə, qayıdaq FNH məsələsinə. İndi yuxarıda adlarını çəkdiklərim və çəkmədiklərim çəkiblər tumanlarını başlarına, gözlərini yumub-ağızlarını da açıblar ki, bəs hələ bundan sonrası da var, hədə bir yandan, şantaj o biri yandan, söyüş də ki, biri-bir qara qəpikdən. Belə məxluqlar hələ də anlamırlar ki, bir dövlət qurumunun daxilində baş verənləri bütövlükdə həmin qurumun adına yazmaq elə dövlətə qarşı çıxmaq deməkdir! 44 günlük Vətən müharibəsi zamanı FHN-nin onlarla əməkdaşı torpaqlarımızın azadlığı uğrunda canlarından keçib şəhid oldular.

Məhz FHN-nin qəhrəman oğulları qardaş Türkiyədə baş vermiş dəhşətli meşə yanğınlarının söndürülməsində tarix yazdılar və yalnız qardaş ölkədə deyil, eləcə də




fövqəladə hallar yaşanarkən istənilən anda istənilən ölkələrə öz yardım əllərini uzadırlar.

Bu gün FHN-nin bir çox zabit və sıravi əməkdaşları, habelə FHN daxilində hərbi xidmət keçən oğullarımız Vətən müharibəsi veteranları və qaziləridirlər. Onlar dövlətimizin təhlükəsizliyi naminə hər xidmətə gedəndə "Azərbaycan dövlətinə xidmət edirəm!" deyərək, bu gün də işğaldan azad olu-



nan ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatları çərçivəsində fəaliyyət göstərirlər. Belə ki, FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin minaaxtaran qrupları bu kimi təhlükəli əməliyyatlara cəlb olunublar. Bütün bunlardan sonra bütövlükdə dövlət qurumunun adına ləkə yaxmaq hansı dəyərlərə sığdırıla bilər? Yaxud, ləkə yaxanlara hansı adı vermək olar? Bu baxımdan, bütövlükdə FHN kimi nüfuzlu dövlət qurumunu hədəfə almaq, həm də belə bir nüansı ortaya çıxarır ki, burada məqsəd heç də intim görüntülərlə bağlı deyil, əslində, həmin görüntülərdən istifadə edilməklə dövlət maraqlarına qarşı çıxmaqdan ibarətdir!

Yeri gəlib deyə yazmağa məcbur oldum. Məgər xaricdə oturub ovurdlarına çullu dovşan sığışmayan gər-gədalar və ağzıgöyçəklər süddən çıxmış ağ qaşıqdırlarmı? Onların hərəsinin boynunda rüsvayçı, biabırçı hadisələr həkk olunmayıbmı? Bəlkə Qənimət Zahidin yadına "Üç Palma" olayını, ya da Sevinc Osmanqızının ABŞ-da rusiyalı kəşfiyyatçı ilə çıxardığı yataq oyunlarını, Məhəmməd Mirzəlinin ən yaxın adamının idbar xarakterli videogörüntüsünü, yada salaq? Ya da Qulaq Qabilin Vətən müharibəsi zamanı dolayısı ilə Ermənistana tərəf yıxıldığını, Azərbaycanın qələbə qazanacağı halda qulağını kəsəcəyi ilə bağlı söyüş qoyduğu-



nu və sonradan həmin söyüşünü necə yediyini, nəticədə kəsəcəyi qulağının hələ də öz yerində sallandığını və kəsiləcəyi vaxtını gözlədiyini xatırladaq..?




### Hansı nəticəyə gəlinməli?

Beləliklə: indi bir hadisədir, baş verib və gərək baş verməyəydi də! Biz də, elə FHN rəhbərliyi də əsla istəməzdi ki, ölkə gündəminə neqativ təsir göstərəcək belə bir tükürpədici hadisə yaşansın. Təəssüf ki, yaşandı və bundan sonra yenidən bənzər hadisələrin təkrarlanmaması üçün artıq ciddi nəzarət mexanizmləri də işə salınacaq. Hər şey düzələcək! Düzəlməyəcək olanlar isə, bax, həmin o yu-





xarıda adları çəkilənlər tör-töküntülər olacaqlar. Onlar boyunlarındakı qara ləkələri ilə Vətən xaini, dövlət satqını kimi öz ucuz həyatlarını yaşamağa davam edəcəklər, hərgah da ki, buna yaşamaq demək olarsa...

***Rövşən RƏSULOV***

# Sülh üçün böyük şans

*Ərdoğan-Quterreş-Zelenski görüşünü belə adlandırmaq olar*



Bugün dünyanın gündəmini zəbt edən, insanları düşündürən, məşğul edən bir məsələ var. Dünyanı gözləyən qıtlıq. Qıtlıq deyəndə, bura bəşəriyyətin istifadə edəcəyi, həzm-rabeədən keçirə biləcəyi çox qidanı aid etmək olar, ərzaq, su və digər enerji daşıyıcıları. Əvvəllər müharibələr adətən iri dövlətlərin təhriki ilə kiçik ölkələr arasında baş verirdi. Təhrikçilər, müharibələri qızışdıranlar da həmişə ”sülhyaratma” prosesinə sonradan qoşularaq tərəflərə ağıl verirdilər. Əslində kimsə ədaləti bərpa etmək, həqiqəti söyləmək, əsl günahkarın kim olduğunu söyləmək üçün prosesə qoşulmurdu. Bu missiyada iştirak edənlər yalnız hadisələri öz nəzarətində saxlamaq üçün canıyananlıq edirdilər. Hər halda Azərbaycana və Azərbaycan xalqına bu yanaşma yaxşı tanışdır. Bu gün isə vəziyyət dəyişib, döyüşə ”kos-kocalar”, yəni iri dövlətlər gedir...

Rusiya ilə Ukrayna arasında 181-ci gündür ki, davam edən müharibənin səbəblərini sadalamaq fikrim yoxdur. Əsas odur ki, qeyri-adi hadisə baş verib, iki ”qardaş-slavyan” ölkə 6 aydır ki, bir-biri ilə ölümünə döyüşür. Müharibənin hər üzü, hər astarı burada tətbiq olunur. Həm də döyüşlər qaydasız aparılır. Körpülər yandırılır, sülh üçün heç bir şans saxlanılmır. Bu döyüşlərdə hər iki tərəfdən birlikdə təxminən 100 min insan həyatını itirib. Bunların heç də hamısı döyüşdə iştirak edən hərbçilər deyil, mülki vətəndaşlar arasında ölənlər də az deyil. Əslində bu müharibənin başlandığı tarix də yaddan çıxıb. 2014-cü ildə rusiyapərəst Yanukoviçin hakimiyyətdən uzaqlaşdırılması ilə başlayıb bu qırğınlar, ”Maydan” hadisələri körükləyib bu qırğınları. Bu gün isə iki qonşu arasında başlanan müharibədən təkcə ukraynalılar və ruslar yox, uzaq Afrika ölkələrində belə bu müharibənin acısını yaşayanlar var.



Məsələ bundadır ki, Rusiya və Ukrayna dünya taxıl bazarında tam olaraq dominantlıq edə bilməsələr də, hər ikisinin birlikdə payı da az deyil. Rusiya başlatdığı müharibə səbəbindən Qara dənisdə Ukraynanın bütün su nəqliyyatının hərəkəti tam olaraq məhdudlaşdırılıb. Rusiya hərbi donanması dənizdə ”at oynadır”. Həm hərbi, həm də mülki gəmilərini Qara dənizdə hərəkət etdirə bilməyən rəsmi Kiyev əslində dünya bazarına taxılını quru yolu ilə də çıxara bilərdi. Amma dünyanın diqqətini cəlb etmək, ajiotaj yaratmaq, Rusiyaya dünya birliyinin təzyiqlərini davamlı hala gətirmək üçün dəniz yoluna üstünlük verib. Rusiya da Ukraynanın planından xəbərdar olduğu üçün əvvəlcə mülki gəmilərə toxunmayacağını desə də, hədəfin hərbi obyektlər olduğunu israrla bildirsə də Ukrayna heç bir gəmisini dənizə çıxarmaq istəmədi. Bəli, bu, onda baş verdi ki, etibarlı bir ölkə dövrəyə girdi. Bu, qardaş Türkiyə idi...

Avqustun 18-də Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Lvovda Vladimir Zelenski ilə görüşdü. Bəzi dünya mediası bu görüşü Rusiya ilə Ukrayna arasında ”sülh şansı” kimi təqdim edib. Rusiya-Ukrayna münaqişəsinə son qoymaq üçün böyük səylər göstərən prezident Rəcəb Tayyib Ərdoğan Lvov şəhərinə gedib və Zelenski ilə görüşüb. BMT-nin baş katibi Quterreşin də iştirak etdiyi danışıqlarda Ərdoğan deyib: ”Hər şey danışıqlar masasına gedən ən qısa və ədalətli yolu tapmaqdan ibarətdir”.

Türkiyə prezidenti Ukrayna prezidenti Vladimir Zelenski və BMT-nin baş katibi Antonio Quterreşlə görüşərək davam edən Rusiya-Ukrayna münaqişəsini müzakirə edib. Potoçki sarayında mətbuata qapalı keçirilən üçtərəfli sammit 40 dəqiqə davam edib. Görüşdə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu, Türkiyə Milli Kəşfiyyat Təşkilatının rəhbəri Hakan Fidan və prezidentin sözçüsü İbrahim Kalın da iştirak edib.

Sammitdən sonra birgə mətbuat konfransı keçirilib. Çıxışına Zelenski və Quterreşin ünvanladığı salamlama sözləri ilə başlayan Ərdoğan Ukrayna prezidentinin dəvəti ilə Lvovda olmaqdan çox məmnun olduğunu qeyd edib. Türkiyə lideri bildirib ki, Zelenski ilə ikitərəfli görüşdə Ankara ilə Kiyev arasında strateji tərəfdaşlıq səviyyəsində olan münasibətlərin bütün aspektləri nəzərdən keçirilib və əlavə edib: ”Biz əməkdaşlığımızı inkişaf etdirmək imkanlarını, həmrəyliyimizi müzakirə etdik. Əlbəttə, danışıqların əsas mövzusu təxminən altı aya yaxındır davam edən silahlı münaqişədir. Bu münasibətlə mən Ukraynanın ərazi bütövlüyü və suverenliyinə dəstəyimizi bir daha bəyan etdim”.

## Türkiyədə 325 min ukraynalı

”Hərbi əməliyyatlar başlayandan bəri biz Ukrayna xalqının təcili humanitar ehtiyaclarını ödəmək üçün 98 yük maşını humanitar yardım göndərmişik və 325 minə yaxın ukraynalını ölkəmizdə müvəqqəti yerləşdirmişik. Ölkəmizdə 1099 yetim uşağı, 408 müşayiət edən şəxslə birlikdə qəbul etmişik. Ukraynada vəziyyət normallaşana qədər ümumilikdə 1507 nəfər Türkiyə ərazisində qalacaq. Görüşümüzdə hərbi münaqişənin törətdiyi fiziki dağıntıların həcmini də müzakirə etdik. Ukraynanın yenidən qurulması üçün lazımi dəstəyi göstərəcəyik”, - Türkiyə dövlətinin başçısı əlavə edib.

## Qoy münaqişə danışıqlar masası arxasında bitsin

Taxıl müqaviləsinin qüvvəyə mindiyi avqustun 1-dən bu yana ümumilikdə 25 gəmi və təxminən 625 min ton Ukrayna taxılının dünya bazarına çıxarıldığını xatırladan Ərdoğan: ”Təmaslarımız zamanı diqqətimizi yaradılmış mexanizmin fəaliyyətinin qorunub saxlanılması və genişləndirilməsi üçün atıla biləcək addımlara yönəltdik. Üçtərəfli görüşümüzdə biz İstanbul sazişinin yaratdığı müsbət atmosferin davamlı sülhə çevrilməsi imkanlarını da qiymətləndirdik. Diplomatik prosesin canlandırılması üçün beynəlxalq ictimaiyyətin daha çox məsuliyyət daşımalı olduğunu vurğuladıq”, deyib.

## Biz vasitəçi rolunu oynamağa hazırıq

”Şəxsən mən əminəm ki, münaqişə nəhayət danışıqlar masası arxasında bitəcək. Əslində, cənab Zelenski və Quterreş də danışıq masasına doğru atılan addımlarımızı dəstəklədilər. Mən danışıqların bərpa olunmasını mümkün hesab edirəm. Mart ayında İstanbulda formalaşan parametrlərin əsasını təşkil edir. Biz bu məqsədə nail olmaq üçün bir daha vasitəçi kimi çıxış etməyə hazırıq. Təbii ki, görüşümüzdə hərbi əsirlərin mübadiləsini və bu istiqamətdə təşəbbüslərimizi müzakirə etdik. Bu baxımdan və vurğulamaq istəyirəm ki, biz bu məsələyə böyük əhəmiyyət veririk”.

## Putinlə danışıqları dəyərləndirin

”Düşünürəm ki, hazırda hadisələri izləyən hər kəs əsirlərin mübadiləsi ilə bağlı baş verənlərlə maraqlanır. Bu kontekstdə cənab Putin, Rusiya tərəfi və mən bütün təmaslarımızın nəticələrini qiymətləndirməyə davam edəcəyik”, - prezident bildirib.

Daha sonra Ərdoğan Lvova səfəri zamanı göstərdikləri bütün köməyə görə Ukrayna və Polşa hakimiyyətinə bir daha təşəkkür edib.

## Ərdoğanın səfəri güclü dəstəkdir

Vladimir Zelenski Lvovda Ərdoğanla ikitərəfli görüşdən sonra yazılı açıqlama verib. Türkiyə liderinin səfərini güclü dəstək siqnalı kimi qiymətləndirən Zelenski qeyd edib ki, Türkiyə prezidentinin Ukraynaya səfəri belə bir qüdrətli ölkənin əhəmiyyətli dəstək mesajıdır: ”Lvovda keçirilən görüşdə biz Rəcəb Tayyib Ərdoğanla taxıl təşəbbüsünün yaxşılaşdırılması imkanlarını, Zaporojye AES ətrafında vəziyyəti və işğalçıların nüvə şantajını, Rusiya tərəfindən Ukraynanın müvəqqəti işğal olunmuş ərazilərində irimiqyaslı taxıl oğurlamasını müzakirə etdik. Biz müdafiə sahəsində əməkdaşlıq məsələlərinə də toxunduq”.

Zelenski Ukrayna ilə Türkiyə arasında əməkdaşlığın daha da genişlənməsinin hər iki tərəfi gücləndirəcəyinə əminliyini ifadə edib.

## İnfrastruktur sazişi

Prezident Ərdoğanın Ukraynaya səfəri zamanı Türkiyə ilə Ukrayna arasında hərbi münaqişə nəticəsində dağılmış infrastrukturun bərpasına dair saziş imzalanıb. Sənədi Ukraynanın infrastruktur naziri Oleksandr Kubrakov və Türkiyənin ticarət naziri Mehmet Muş imzalayıblar. Müqavilə iki ölkə arasında bərpa məsələləri üzrə işçi qrupunun yaradılmasını, habelə Ukraynada yollar, körpülər, su və elektrik infrastrukturu, xəstəxanalar, məktəblər və digər sosial-iqtisadi obyektlərin yenidən qurulması üzrə işlərin əlaqələndirilməsini nəzərdə tutur.

## Sülh üçün şans

Lvovda keçirilən üçtərəfli sammit dünya mediasında geniş rezonans doğurub. AFP və AP kimi beynəlxalq xəbər agentlikləri hadisələri hər dəqiqə xəbər verərkən, Əl-Cəzirə görüşə ”sülh üçün bir şans” şərhini təqdim etdi. ”Əl-Cəzirə”nin müxbiri Lvovdakı görüşün məhz belə bir fürsət yaratdığını qeyd edib. Washington Post yazıb ki, üçtərəfli sammitdə liderlər altı aydır davam edən silahlı münaqişəyə son qoymağın yollarını müzakirə ediblər. İngiltərənin ”İndependent” (İndependent) qəzeti Türkiyənin Qara dəniz limanlarından 22 milyon ton qarğıdalı və digər taxılların ixracına yol açan razılaşmanın əldə edilməsində vasitəçi olduğunu xatırladıb. Nəşr qeyd edir ki, liderlər bölgədəki problemlərin həlli üçün Lvovda görüşüblər. ”Politico” nəşri sammitin əhəmiyyətini vurğulamaq üçün öz səhifəsində Türkiyənin ”taxıl dəhlizi” açmaq səylərini önə çəkib. ”France 24” (France 24) qəzeti ”taxıl dəhlizi”nin Türkiyə prezidentinin səyləri ilə açıldığını vurğulayıb: ”Ərdoğanın səyləri sayəsində artıq çox şey əldə olunub”.

## Polşa lideri Dudadan təşəkkürlər

Prezident Ərdoğan Polşa prezidenti Andjey Duda ilə telefon danışığı aparıb. Türkiyə Prezident Administrasiyasının Kommunikasiya şöbəsinin yaydığı məlumatda deyilir ki, danışıqlar zamanı Türkiyə lideri bir hissəsi Polşadan keçən Ukraynaya səfərini asanlaşdırdığı üçün polşalı həmkarına təşəkkür edib. Polşa prezidenti Duda da öz növbəsində Rusiya-Ukrayna böhranının həllində konstruktiv roluna və səylərinə, həmçinin taxıl ixracı sazişinə verdiyi töhfəyə görə prezident Ərdoğana təşəkkürünü bildirib və təbrik edib.

## ”Taxıl dəhlizi” haqqında saziş

Bu il fevralın 24-də başlayan Rusiya-Ukrayna hərbi münaqişəsi 6 aya yaxındır ki, davam edir. Türkiyə tərəflərin hər biri ilə əlaqə saxlamaq və sülhün bərqərar olması üçün toqquşmaların ilk günlərindən intensiv diplomatik səylər göstərib. Bu baxımdan Türkiyə Qara dəniz limanlarından taxılın dünya bazarlarına çatdırılmasının təmin edilməsində vasitəçi rolunu öz üzərinə götürüb və Moskva və Kiyevin ”taxıl dəhlizi” haqqında razılaşma əldə etməsinə töhfə verib. 5 avqust 2022-ci ildə Rəcəb Tayyib Ərdoğan Soçidə Rusiya prezidenti Vladimir Putinlə də görüşüb.

Analitiklər də hesab edirlər ki, Türkiyənin Ukrayna və Rusiya arasında danışıqlarda vasitəçi olmaq istəyi müharibənin danışıqlar masası arxasında başa çatmasını tam olaraq təmin edəcək. Ukrayna Prezidenti və BMT-nin baş katibi ilə üçtərəfli danışıqlarda Ərdoğanın iştirakı müharibənin necə bitəcəyinin anonsunu verir. Bir ay əvvəl, BMT, Ukrayna, Rusiya və Türkiyə müştərək tarixi işi nümayiş etdirirdi. Təkcə Ukrayna deyil, bütün dünya taxılın Qara dəniz vasitəsilə dünya bazarlarına təhlükəsiz ixracını mümkün edən İstanbul sazişinin müsbət təsirlərini hiss etməyə başlayıb, Ukraynadakı müharibənin danışıqlar masası arxasında bitəcəyinə inanır. Əsas problem danışıqlar masasına aparacaq ən qısa yolun müəyyən edilməsidir. Beynəlxalq ictimaiyyət diplomatik prosesi canlandırmaq üçün daha çox məsuliyyət götürməlidir.

Avropa İttifaqının Ali komissarı Cozep Borrel Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə telefonda danışığında bildirib ki, Ukrayna taxılının ixracına dair BMT sazişinin təmin edilməsində və Rusiyanın Ukraynaya təcavüzünün nəticələrinin yumşaldılmasında Türkiyənin rolu əvəzsizdir. Avropa İttifaqı ümid edir ki, Türkiyə mənasız müharibəni dayandırmaq üçün Rusiyaya təsirindən istifadə edə biləcək.

Bəli, Türkiyə iki slavyan dövlətin apardığı amansız müharibənin episentrindədir. Daha doğrusu, sülhyaratmada analoqu olmayan gedişlər edir. Əslində, Türkiyənin məqsədi sonu görünməyən müharibəni dayandırmaq, bəşəriyyəti aclıqdan xilas etməkdir. Bu yol çətindir, amma maneə yaradanların bəd əməllərinə qarşılıq vermək, onların oyunlarını pozmaq ondan da çətindir.

**V.VƏLİYEV**

ANALİTİK

# "Azərbaycan Rusiya-Türkiyə münasibətlərində "Gümüş dövrün" benefisiarına çevrilir"

**Rusiya Beynəlxalq Əlaqələr Şurasının aparıcı eksperti Aleksey Naumov "Caliber" analitik mərkəzinə müsahibəsində regionumuzda gedən proseslər haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.**



***- Bildiyiniz kimi, Rusiya və Türkiyə Zəngəzur dəhlizinin açılması ilə bağlı danışıqlar aparır. Sizcə, Azərbaycan və bütün region üçün bu prinsipial əhəmiyyətli məsələdə tərəflər razılığa gələ biləcəkmi?***

- Zəngəzur dəhlizinin açılması təbii ki, həllini gözlədiyimiz əsas məsələdir və bununla bağlı Moskvadan səslənən bəyanatlar kifayət qədər nikbindir. Sualınıza cavab olaraq deyəcəyəm ki, bəli, tərəflər yaxın vaxtlarda razılığa gələ bilərlər. Üstəlik, buna təkcə 9 (10) noyabr 2020-ci il tarixli üçtərəfli razılaşmalara uyğun olaraq başlamış nizamlanma prosesi deyil, həm də Rusiya və Türkiyə arasında əhəmiyyətli dərəcədə intensivləşmiş münasibətlərin ümumi atmosferi kömək edir.

Putinlə Ərdoğanın Soçidə 4 saat davam edən danışıqları tərəflərin geniş mövzularda qarşılıqlı əlaqədə olduğunu təsdiqlədi və bu, yekun bəyanatlardan da aydın göründü. Müvafiq olaraq, qeyd etmək istədiyim iki müsbət məqam var. Birincisi, bu, üçtərəfli razılaşmaların həyata keçirilməsidir, ikincisi, Rusiya xarici siyasəti üçün Türkiyə vektorunun əhəmiyyəti. Digər tərəfdən, Zəngəzur dəhlizinin açılması təkcə Azərbaycan üçün deyil, Azərbaycanla illik ticarət dövriyyəsini 3dəfə artıraraq 15 milyard dollara çatdırmaq istəyən Türkiyə üçün də vacibdir.

Deməli, indi bütün amillər Zəngəzur dəhlizinin yaxın gələcəkdə açılmasının və üçtərəfli sazişlərin həyata keçirilməsində mühüm mərhələnin başlanmasının tərəfdarıdır.

***- Rusiya-Türkiyə münasibətlərinin hazırkı mərhələsini və perspektivlərini necə qiymətləndirirsiniz?***

- Mən həmişə Rusiya-Türkiyə münasibətlərinin fəal inkişafının tərəfdarı olmuşam və əslində, diqqətli oxucu bilir ki, mənim nəzəriyyəm hamımızın başlanğıcını gözlədiyimiz çoxqütblü dünyanın suveren və müstəqil dövlətlərinin qarşılıqlı əlaqəsi üzərində qurulmasıdır. Yəni, post-imperator rus nəzəriyyələrinin bəzi dairələrində müttəfiqin və ya tərəfdaşın daha zəif mövqedə olan asılı dövlət olması ilə bağlı qəbul edilən fərziyyənin, mənə elə gəlir ki, tarixi perspektivi yoxdur.

Aydındır ki, formalaşmaqda olan çoxqütblü dünya şəraitində biz böyük dövlətlər kimi xarici aktorların iştirakı olmadan ikitərəfli münasibətlər və ya regional gündəliyi qarşılıqlı maraqlar əsasında həll edən bir neçə güc mərkəzinin mövcudluğunu nəzərdə tuturuq. Ona görə də Moskva və Ankaranın bir-birinə qarşılıqlı marağı göz qabağındadır. Türkiyə çətin iqtisadi vəziyyətdə olduğu bir vaxtda ona yeni xarici siyasət vektorları- Avropa və ABŞ-ı əvəz edəcək Rusiya kimi yeni tərəfdaşlar lazımdır. Belə ki, Rusiya ilə fəal əməkdaşlıq prezident Ərdoğana Türkiyə iqtisadiyyatındakı neqativ vəziyyəti bərabərləşdirməyə imkan verəcək. Deməli, Rusiya-Türkiyə münasibətlərinin indiki dövrünü gümüş əsr hesab etmək olar, bundan faydalanan həm də Rusiya və Türkiyə ilə yaxın olan, hər iki dövlətlə müttəfiqlik münasibətləri olan bir ölkə kimi Azərbaycan olacaq.



***- Yaxın Şərqdə, xüsusən, Suriyada münaqişələrin həlli, eləcə də son Tehran görüşündən sonra İran, Türkiyə və Rusiya liderləri arasında yaranan koordinasiya ilə qlobal və regional gündəmə hansı korrektələr edilə bilər?***

- Rusiya, İran və Türkiyə liderlərinin görüşü, ilk növbədə, Suriya üçün vacibdir. Düşünürəm ki, biz Türkiyənin Suriyada Kürdüstan Fəhlə Partiyasına qarşı hərbi əməliyyatını görəcəyik, lakin bütün bunlar prezident Bəşər Əsədin iki fəal tərəfdarı olan Rusiya və İranla razılaşdırılacaq. Yəni Suriya ilə bağlı kompromis tapılacaq və Türkiyənin təhlükəsizlik tələblərinin və buna uyğun olaraq Suriya hökumətinin iki ən fəal dəstəkçisi kimi Moskva və Tehranın maraqlarının təmin edilməsini özündə ehtiva edəcək. Ona görə də mən bu faktı, o cümlədən çoxqütblü dünyanın təzahürünü bütövlükdə beynəlxalq siyasət üçün yaxşı hadisə hesab edərdim. Biz görürük ki, Vaşinqtona baxmadan qərarlar qəbul etmək olar.

***- Müşahidələrinizə görə, İran niyə Ermənistanı dəstəkləməkdə davam edir?***

- 2020-ci ilin noyabr hadisələrindən sonra, Azərbaycanın güclənməsindən sonra İran hiss edir ki, onun regionda mövqeləri bir qədər zəifləyir. Ona görə də o, öz xarici siyasət reputasiyasını və xarici siyasi qüvvələrini qoruyub saxlamağın yollarını axtarır və bu vektorlardan biri də Ermənistana dəstəkdir. Biz indicə Zəngəzur dəhlizinin açılmasından sonra Türkiyə ilə Azərbaycan arasında ticarətin mümkün artımını müzakirə etdik, yəni Cənubi Qafqazda türk faktorunun güclənməsindən danışdıq. Ona görə də hesab edirəm ki, Tehran təbii yolla qarşıdurmaya, ağırlığı tərəzinin o biri tərəfinə qoymağa çalışır. Hesab edirəm ki, bu, müəyyən mənada ayıq siyasi hesablamadır, məntiqlidir, lakin çətin ki, əsaslandırılsın, çünki İran çətin xarici siyasət vəziyyətindədir və region ölkələri ilə daha da antaqonizm yaratmaq onun üçün faydalı olmayacaq.

***- Yaxın gələcəkdə Cənubi Qafqazda hansı siyasi prosesləri proqnozlaşdırırsınız?***

- Hazırda gözlədiyimiz əsas proses üçtərəfli bəyanatın bəndlərinin həyata keçirilməsi, Rusiya sülhməramlı kontingentinin ixtisar edilməsi və Qarabağın Azərbaycan hakimiyyətinin tam nəzarətinə verilməsidir. Bununla belə, başa düşürük ki, bütün bunlar yaxşı gələcək nəticələrə gətirib çıxaracaq. Birincisi, Türkiyə və İran arasında qarşıdurmanın güclənməsi, çünki İranın Azərbaycan və Türkiyənin daha da güclənməsindən məmnun olacağını düşünmürəm. Müvafiq olaraq, o, Ermənistanla etdiyi kimi bəzi cəhdlər edəcək. Amma bunun nəticəsi daha çox nüvə sazişinin nəticələrindən asılıdır, əgər Qərbin sanksiyaları ondan götürülərsə və iqtisadi fəaliyyət bərpa olunarsa, Tehranı xeyli güclənə bilər və s. Çünki indi vəziyyət olduğu kimi qalsa və Qarabağ tamamilə Azərbaycanın nəzarətinə keçsə, o zaman İranın türk blokuna müqavimət göstərmək şansı olmayacaq. Sanksiyalar aradan qaldırıldıqda isə, vəziyyət o qədər də sadə olmayacaq.

Bundan əlavə, Cənubi Qafqazın başqa bir ölkəsi olan Gürcüstana gəlincə. Avropanın ümidlərindəki məyusluq onu regionda və dünyada öz mövqeyini yeniləmək üçün yeni yollar axtarmağa vadar edə bilər. İndi Gürcüstanda Rusiyadan İT sahəsində mütəxəssislərin axını müşahidə olunur ki, bu da təbii ki, İT sahəsinin aktivləşməsinə və ümumilikdə yeni fəaliyyət sahələrinin inkişafına səbəb olacaq. Ona görə də bütün bu sarsıntıların Gürcüstana necə təsir edəcəyi maraqlı olacaq. Ümumiyyətlə, bu proseslər yaxın gələcəkdə Cənubi Qafqazda həyata keçirilə bilər.

*Tərcümə - Elçin Bayramlı*



SON SƏHİFƏ

# Səs

24 avqust 2022-ci il

# Ronaldodan qələbə paylaşımı



**“Mançester Yunayted”in futbolçusu Kriştiano Ronaldo İngiltərə çempionatının 3-cü turunda ”Liverpul”a qalib gəldikləri oyundan (2:1) sonra sosial şəbəkə hesablarından paylaşım edib.**

Qol.az xəbər verir ki, matçdan şəklini paylaşan portuqaliyalı hücumçu bu sözləri yazıb: ”Afərin! Old Trafford-a gələn hər kəsə dəstəyinizə görə təşəkkür edirəm”. Qeyd edək ki, Ronaldo ”Liverpul”la görüşün 86-cı dəqiqəsində meydana çıxıb və qol vurmayıb.

# XƏBƏRDARLIQ: Yol qəzaları ən pik həddə çatıb!

“Yol nəqliyyat hadisələrinin sayında həqiqətən artım müşahidə edilir. Yol qəzası nəticəsində ölənlərin və xəsarət alanların sayı da çoxalıb. Son günlərdə müəyyən artım müşahidə olunmasa da, öncəki günlərə nəzər saldıqda görürük ki, bəzən bir gündə 5-6 nəfəri yol qəzasında itirmişik”. Bu fikirləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Elməddin Muradlı bildirib.

Nəqliyyat eksperti qeyd edib ki, həftəsonu 12-13 nəfərin məhz qəzalar ucbatından vəfat ediyi də müşahidə olunub: ”İnsanlar istirahət adı ilə bölgələrə axın edirlər. Bu axın olarkən də nədənsə yol hərəkəti qaydalarını unudurlar və təhlükəsizlik amillərinə əməl etmirlər. Bir növ insanlar hər şey üçün tələsirlər. Xüsusən, bu, şimal istiqamətində olan yollarda təmir işləri ilə əlaqədardır. Sürücülər təmkinsiz davranaraq, ötmə əməliyyatı aparırlar. Məhz bu səbəblərə görə də həmin zonada ağır yol qəzaları baş verir. Ümumən qəzaların kökündə təbii ki, sürücü səhlənkarlığı var. Həmçinin, yol hərəkətinin təşkilini də qeyd etmək lazımdır: yolların işıqlandırılması, təhlükəsizlik qaydalarının təmin edilməsi və s. hallarda öz əksini tapmalıdır. Bizi narahat edən digər hal isə piyadaların vurulmasıdır. Bütün hadisələrin içində piyada vurmalar 50 faizdən çox təşkil edilir. Piyada vurulması hallarını faiz etibarilə götürsək, Bakı şəhərində bu vəziyyət 50 faizə yaxın, respublikada isə 50 faizdən artıqdır. Bu baxımdan düşünürəm ki, piyadalarla iş daha səmərəli qurulmalıdır. Piyadaların təhlükəsiz davranışı öz həllini tapmalı, eyni zamanda, bu istiqamətdə mübarizə tədbirləri ən sərt formada həyata keçirilməlidir. Heç kimə güzəşt olunmamalıdır. Təbii ki, burada nəzarət mexanizmindən danışmaq lazımdır. Nəzarət mexanizmi hansı səviyyədə həyata keçirilirsə, piyada təhlükəsizliyi o səviyyədədir. Nəzarət zəif olduğu üçün piyadalar da xaotik şəkildə hərəkət edirlər və haradan necə gəldi yolu keçirlər. Nəticədə də, ağır piyada qəzaları baş verir. Gündəlik qəzaların təhlilinə baxdığımız zaman şahid oluruq ki, hadisələrin əksər hissəsi piyada vurmaları ilə bağlıdır”.



***Banuçiçək Hüseynli***

## İtaliyada 40 metrlik superyaxta batıb

İtaliyanın Katanzaro sahillərindən təxminən 15 kilometr aralıda 40 metrlik superyaxta su almağa başlayıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, yardım çağırışı üzərinə Avropa Sərhəd və Sahil Mühafizəsi adından bir Rumıniya gəmisi və daha bir patrul gəmisi bölgəyə göndərilib. Geliboludan yola düşərək Milazzoya gedən superyaxtanın 4 sərnişini və 5 ekipaj üzvü xilas edilib. Yedək gəmi ilə limana çəkmək istəyərkən superyaxta tamamilə batıb. İtaliyanın sahil mühafizəsi pis hava şəraitinin superyaxtanın limana çəkilməsini çətinləşdirdiyini bildirib.




***Abutel İlhamqızı***

# Duyğusal yorğunluq nədir?

PSİXOLOQ AÇIQLADI

”Yorğunluğun zehni, fiziki və psixoloji növləri var. Duyğusal yorğunluq insanların psixoloji durumu ilə əlaqəli olandır. Biz bunu tükənmişlik sindromu ilə də eyni tuturuq. Çünki əlamətlər eynidir. İnsan iş görməsə də, daim özünü yorğun hiss edir, fikirli olur, hər şey maraqsız gəlir, heç bir şey onu ruhlandırıb ilhamlandırmır. Bir növ də bunu depressiyaya bənzədirlər. Amma bunlar tam fərqli bir şeylərdir. Çünki burada da insan ünsiyyət qurmaqdan çəkinməyə, heç bir şeydən zövq almamağa başlayır. Hər kəsə də maraqlıdır ki, ”bu, haradan qaynaqlanır və bunun öhdəsindən necə gəlmək lazımdır?”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fidan Nizamova deyib.

Onun sözlərinə görə, insan emosiyalara, ruhuna bir rahatlıq verməlidir: ”Bu, çox vacibdir və müxtəlif yolları var. Kimi meditasiya edir, kimi psixoloqa müraciət edir, kimi də bir az tək qalır və yaxud da əksinə, təbiətə çıxır, dostları ilə görüşür. Yəni, zehnini rahatladacaq, ruhunu rahatladacaq bir fəaliyyət lazımdır. Bu məqamlarda diqqət etməliyik. Bizi üzən duyğuların üzərinə gedib kökünü tapmalıyıq”.



Psixoloq sözlərinə belə davam edib: ”Duyğusal yorğunluq bir növ təşviş və həyəcanla da əlaqəlidir. Çünki bu cür şəxslər hər şeyi kontrol etməyə çalışan insanlardır. Onlar daim qaçaqaçda və hərəkətdədirlər. Özləri fiziki olmasa da, fikirlər daim nələrisə düşünür və bu da insana yorğunluq verir. Bunlara diqqət edib sakitlik yaratmaq lazımdır.



Onu da qeyd edim ki, bu hala qapanmaq pis nəticələr verə bilər. Çünki insanlardan uzaqlaşır, şəxsi münasibətlərində, ətrafında bununla bağlı problemlər yaşamağa başlayırsan. Yorğunsan deyə və yaxud yorğun olduğunu düşünürsən deyə aqressivləşirsən, insanlarla münasibətini pozursan və s. Ona görə hər kəsə tövsiyə edərdim ki, belə bir durum yaşayırlarsa bunun sadə bir şey olduğunu, keçib gedəcəyinə inansınlar. Amma bunun üzərində çalışmaq lazımdır. Dediyim kimi, öncə zehni, ruhu dincəltmək, ona izn vermək lazımdır ki, o da bir müddət boş qalsın, fəaliyyət olmasın, düşünməsin.

Daha sonra bizi əyləndirən, həyatımıza həyat eşqi qatan bir məşğuliyyətimizin olması çox vacibdir. Hər kəsə tövsiyə edərdim ki, bu həvəsi, sevgini tapsınlar”.

***Ayşən Vəli***

## ELAN

Cəfərova Zəhra Musa qızına Sosial Xidmətlər Agentliyi tərəfindən verilmiş Şəhid ailəsi üzvü vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Yusubov Elşad Mirzəağa oğluna məxsus 10RC528 nömrəli nəqliyyat vasitəsinin texniki pasportu itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**

“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR

**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3600**